RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 201 (8224) CÜMƏ, 13 sentyabr 2019-cu il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



# Təhsil müəssisələrinin əsaslı şəkildə yenidən qurulması uğurla həyata keçirilir







Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 12-də Bakının Suraxanı rayonundakı 101 nömrəli orta məktəbdə aparılan təmir-tikinti və yenidənqurmadan sonra yaradılan şəraitlə tanış olub.

AZƏRTAC xəbər verir ki, Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov və məktəbin direktoru Səidə Məmmədova görülən işlərlə bağlı dövlət başçısına ətraflı məlumat verdilər.

Bildirildi ki, 101 nömrəli tam orta məktəbin binası 1937-ci ildə tikilib. O zaman 400 şagird yerlik üçmərtəbəli korpus istifadəyə verilib. 1960-cı ildə isə 4 sinifdən ibarət yardımçı korpus tikilib. 2012-2013-cü illərdə 20 sinif otağından ibarət əlavə 400 yerlik bina istifadəyə verilib. Bakı və ətraf qəsəbələrin sosial-iqtisadi inkişafı Dövlət Proqramına əsasən bu ilin may ayında təhsil ocağının 1937-ci ildə istifadəyə verilən binası sökülərək yerində 360 yerlik 15 sinif otağından ibarət əlavə korpusunun tikintisinə başlanıb. İnşaat işləri yüksək səviyyədə həyata keçirilib. Bundan sonra məktəbdə birnövbəli sistemdə 985 şagird təhsil alacaq. Şagirdlərin təlim-tərbiyəsi ilə 62 müəllim məşğul olur.

Diqqətə çatdırıldı ki, məktəbdə 35 sinif otağı, informatika kabineti, laboratoriya, idman və akt zalları, hərbi otaq və yeməkxana var. Şagirdlərin yüksək səviyyədə təhsil almaları üçün sinif otaqları zəruri dərs vəsaitləri ilə təchiz edilib. Məktəbdə internet, mebel-inventar və digər zəruri avadanlıqlar müasir tələblər səviyyəsindədir.

Ardı 2-ci səh.




# Paytaxtın nəqliyyat sisteminin mühüm elementi olan Bakı metrosu sürətlə inkişaf edir





Bakı Metropoliteninin "Xətai" stansiyası əsaslı təmir və yenidənqurmadan sonra sentyabrın 12-də istifadəyə verilib.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev stansiyada görülən işlərlə tanış olub.

"Bakı Metropoliteni" Qapalı Səhmdar Cəmiyyətinin sədri Zaur Hüseynov dövlət başçısına görülən işlər barədə məlumat verdi.

Bildirildi ki, "Xətai" stansiyası 1968-ci ildə istismara verilib. Stansiyanın 50 ildən artıq istismar müddətində köhnələn, müasir dövrün tələblərinə cavab verməyən bütün infrastrukturunun yenilənməsi məqsədilə təmir mərhələlərlə aparılıb. 2014-cü ildə birinci mərhələdə stansiyanın platformasının orta zalı, stansiya yolu və "Xətai-Cəfər Cabbarlı" mənzilinin müvafiq tunelində əsaslı təmir və yenidənqurma tədbirlərinə başlanılıb. Bu dəfə aparılan yenidənqurmadan sonra "Xətai" stansiyası əsaslı yenilikləri ilə sərnişinlərin xidmətində olacaq. Stansiyanın infrastrukturu və görkəmi tamamilə yenilənib. Burada funksionallığı ilə seçilən 4 yeni müasir eskalator quraşdırılıb. Bakı Metropoliteninin ən dərin stansiyasında sərnişinlərin enib-qalxma təhlükəsizliyinin, təxliyyə imkanlarının və rahatlığının artırılması, xidmət səviyyəsinin daha da yüksəldilməsinə nail olunub.

Qeyd edildi ki, Bakı Metropolitenində müasir tipli qatarların sayı 11-ə çatdırılıb. Rusiyanın "Transmaşholdinq" Səhmdar Cəmiyyətinin tərkibinə daxil olan "Metrovaqonmaş" ASC 2019-cu ildə Bakı Metropoliteni üçün 30 vaqondan ibarət 6 qatar tərkibi istehsal edib. Dörd qatar tərkibi iyul və avqust aylarının əvvəllərində xəttə buraxılıb. Dördüncü nəslə mənsub olan bu qatarlar ən müasir tələblər səviyyəsində istehsal edilib.

Ardı 2-ci səh.

## Şamaxı rayonunda baş vermiş təbii fəlakətin nəticələrinin aradan qaldırılması işlərinin davam etdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq təbii fəlakətin nəticələrinin aradan qaldırılması işlərinin davam etdirilməsi məqsədilə **qərara alıram:**

1. Baş vermiş zəlzələ nəticəsində Şamaxı rayonunda yaşayış evlərinə dəymiş ziyanın aradan qaldırılması işlərinin davam etdirilməsi məqsədilə həmin evlərin təmiri üçün Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan 2,0 (iki) milyon manat Şamaxı Rayon İcra Hakimiyyətinə ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 12 sentyabr 2019-cu il*

## Azərbaycan-Avropa Şurası əməkdaşlığının müxtəlif aspektləri geniş müzakirə edildi

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 12-də Avropa Şurası Parlament Assambleyasının (AŞ PA) prezidenti xanım Lilian Mori Paskieni qəbul edib.



Söhbət zamanı AŞ PA prezidenti xanım Lilian Mori Paskienin Azərbaycanla tanışlığının, müxtəlif səviyyələrdə keçirilən görüşlərin və aparılan müzakirələrin əlaqələrimizin inkişaf etdirilməsi üçün yaxşı imkanlar yaratdığı qeyd olundu.

Görüşdə bu il Avropa Şurasının təsis edilməsinin 70 illiyinin qeyd olunduğu və bu çərçivədə keçirilən tədbirlərin önəmi vurğulandı.

Söhbət zamanı Azərbaycan-Avropa Şurası əməkdaşlığının müxtəlif aspektləri geniş müzakirə edildi, Azərbaycanın Avropa Şurası çərçivəsində mövcud olan konvensiyalara qoşulması və bu istiqamətdə ölkəmizin qanunvericiliyinin uyğunlaşdırılması məsələlərinə toxunuldu. Görüşdə Azərbaycanda insan haqlarının qorunması, demokratik inkişafla bağlı məsələlər müzakirə edildi.

Söhbət zamanı Avropa Şurasının gündəliyində duran və qarşılıqlı maraq doğuran məsələlərə dair ətraflı fikir mübadiləsi aparıldı.

**AZƏRTAC**

## Dayanıqlı inkişafa xidmət edən müasir təhsil strategiyası

Hər bir xalqın tarixində silinməz iz buraxmış böyük şəxsiyyətlərin elm və təhsilə münasibəti, bu sahələrin inkişafına verdikləri sanballı töhfələr onların əbədiyaşarlığını təmin edən başlıca amillərdən biridir. Bu il anadan olmasının 96-cı ildönümü təntənə ilə qeyd edilən müstəqil Azərbaycan dövlətinin qurucusu, Ümummilli Lider Heydər Əliyev də dövlət idarəçiliyinin bütün mərhələlərində elm və təhsilin inkişafına xüsusi qayğı ilə yanaşaraq, ilk növbədə xalqın intellektual gələcəyini düşünmüşdür.

Mütərəqqi dünya gerçəklikləri ilə uzlaşan fəal maarifçilik kursunun həyata keçirilməsi, dövlət idarəçiliyi üçün yüksək mənəvi-əxlaqi keyfiyyətləri, intellekti, savadı, səriştəsi ilə fərqlənən ixtisaslı kadrların yetişdirilməsi məsələləri Ulu Öndər Heydər Əliyevin dövlətçilik fəaliyyətinin bütün mərhələlərində prioritet məsələlərdən olmuşdur. Azərbaycanda əsrlər əvvəl təşəkkül tapmış maarifçilik ənənələri Heydər Əliyevin ölkəmizə rəhbərliyi zamanında özünün zirvə mərhələsinə yetişmişdir. Məhz Ulu Öndərin müəyyən etdiyi strateji xətt hesabına təhsil Azərbaycan cəmiyyətində həyat normasına, milli-mənəvi dəyərlərimizin ayrılmaz tərkib hissəsinə, müstəqil dövlətin əsas təsisatlarından birinə çevrilmişdir.

Ulu Öndər Heydər Əliyevin müəyyənləşdirdiyi milli dövlətçilik konsepsiyasını son 16 ildə yüksək dinamizmlə davam etdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin həyata keçirdiyi strateji inkişaf kursunun tərkib hissəsi kimi milli təhsil ənənələrimiz getdikcə zənginləşməkdədir.

Ardı 4-cü səh.

# Təhsil müəssisələrinin əsaslı şəkildə yenidən qurulması uğurla həyata keçirilir



Əvvəli 1-ci səh.

Məlumat verildi ki, məktəbin şagird və məzunları müxtəlif beynəlxalq bilik və idman yarışlarında, olimpiadalarda mühüm uğurlara imza atıblar. Bu təhsil ocağının məzunları ali məktəbə qəbul imtahanlarında yüksək nəticələri ilə seçilirlər. 2019-cu ilin statistikasına görə, məktəbi bitirən məzunların 80 faizi tələbə adını qazanıb.

Məktəbin həyətində geniş abadlıq və quruculuq işləri görülüb. Həyətdə futbol və voleybol meydançaları yaradılıb.

Dövlət başçısı İlham Əliyev məktəbin direktoru Səidə Məmmədova ilə söhbət etdi.



**Prezident İlham ƏLİYEV:** Açıq futbol meydançası da var. Gözəl şərait yaradılıb. Sizi təbrik edirəm.

**Səidə MƏMMƏDOVA:** Mən Sizə və Birinci vitse-prezidentimiz Mehriban xanım Əliyevaya təşəkkür edirəm. Bizim üçün belə bir müasir məktəb tikdirmisiniz. Sağ olun, var olun.

**Prezident İlham ƏLİYEV:** Sağ olun.

* * *

Qeyd edək ki, Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafının sürətləndirilməsi ilə bağlı qəbul edilən xüsusi dövlət proqramında nəzərdə tutulmuş tədbirlər planına uyğun olaraq bütün sosial sahələrdə olduğu kimi, təhsil müəssisələrinin əsaslı şəkildə yenidən qurulması, yeni məktəb binalarının, uşaq bağçalarının inşası prosesi də məqsədyönlü şəkildə uğurla həyata keçirilir. Paytaxt və ətraf qəsəbələrlə yanaşı, respublikanın hər yerində orta məktəb binaları yüksək standartlara uyğun şəkildə yenidən qurulur, lazımi avadanlıqla təchiz edilir, təhsil müəssisələrinin ərazilərində abadlıq işləri həyata keçirilir. Təhsil sahəsində görülən bütün bu işlər Azərbaycanda insan kapitalının daha da inkişaf etdirilməsi məqsədinə xidmət edir.





# Paytaxtın nəqliyyat sisteminin mühüm elementi olan Bakı metrosu sürətlə inkişaf edir











Əvvəli 1-ci səh.

Qatarların maksimal sürəti saatda 90 kilometrdir. Yeni vaqonların qapıları daha enlidir. Bu, sərnişinlərin vaqonlara daha rahat və sürətlə giriş-çıxışına imkan yaradır. Qatarlarda vaqonlararası birbaşa keçidin olması vaqonun sərnişin tutumunu 15 faiz artırır, sərnişinlərin qatar boyunca bərabər paylanmasını, yerləşmə sahəsini genişləndirməklə daşımanın rahatlığını və təhlükəsizliyini təmin edir. Vaqonlarda ayaq üstə dayanan sərnişinlər üçün çoxfunksiyalı zonalar, iri yüklər, uşaq arabaları üçün sahələr də ayrılıb, tutacaqlar xüsusi olaraq sərnişin sıxlığı nəzərə alınmaqla layihələndirilib. Qatarın baş vaqonu 38, orta vaqonu isə 44 oturacaqlıdır. Ümumilikdə isə baş vaqonda 315, orta vaqonlarda isə 329 sərnişin mənzil başına çatdırılır. Vaqonlarda təzyiqin tənzimlənməsi və ultrabənövşəyi lampalarla havanın bioloji təmizlənməsi, həmçinin daxili və xarici videomüşahidə sistemləri də var. İşıqdiodlu cihazların tətbiqi isə elektrik enerjisi sərfiyyatını 50 faiz azaldır, onların istismar müddətini 75 faiz artırır. Vaqonların istismar müddəti 30 ildir.

Stansiyada aparılan əsaslı təmir və yenidənqurma zamanı giriş vestibülü və platformanın orta zalının divarında Şah İsmayıl Xətai və onun yaradıcılığına həsr olunmuş bədii-memarlıq kompozisiyaları da bərpa olunub. Eskalatorların maşın zalı da əsaslı təmir edilib, stansiyanın digər infrastrukturunun yenilənməsi tədbirləri görülüb. Təmir dövründə platforma, platformaaltı sahə, stansiya yolu və yol mənzillərində hələ 2014-cü ildə başlanmış əsaslı işlər də başa çatdırılıb, tunel yenidən təftiş olunaraq, bütün dəmir beton konstruksiyalar gücləndirilib və ya yenidən qurulub. Bakı Metropoliteni tarixində ilk dəfə stansiya yolu ən müasir dəmir-beton bloklardan qurulub. Bu məqsədlə köhnə yol yatağı tamamilə sökülüb, dəmir-beton blokların quraşdırılması üçün yenidən layihələndirilib. Stansiyada bütün kommunikasiya xətlərinin, avadanlıqların yenilənməsi ilə bağlı mühüm işlər görülüb, hərəkətin təşkili, idarə olunması və tənzimlənməsində əhəmiyyət kəsb edən mərkəzləşmə məntəqəsi və stansiya növbətçisinin otaqları yenidən qurulub, eskalatorların nəzarətçi köşkü videogörüntülərlə təmin edilib. Stansiyada İKT-nin imkanlarından geniş istifadə olunacaq.

Dövlət başçısına Bakı Metropoliteninin əsaslı şəkildə yenidən qurulan Təlim-Tədris Mərkəzi barədə də məlumat verildi.

Prezident İlham Əliyevin imzaladığı sərəncamla təsdiq olunan dövlət proqramına əsasən Bakı Metropoliteni stansiyalarının yenidən qurulması, infrastrukturun müasir standartların tələbləri səviyyəsinə çatdırılması işləri planlı şəkildə aparılır. Bütün bunlar isə paytaxtın nəqliyyat sisteminin mühüm elementi olan Bakı metrosunun sürətlə inkişaf etməsinə böyük töhfə verir.

# Bakıda Azərbaycan-Türkiyə iqtisadi əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiyanın növbəti iclası keçiriləcək



Sentyabrın 16-da Bakıda Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında iqtisadi əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiyanın 8-ci iclası keçiriləcək.

Nazirlər Kabinetinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, iclasa Azərbaycan Respublikasının Baş Naziri, Azərbaycan tərəfdən komissiyanın həmsədri Novruz Məmmədov və Türkiyə Respublikasının Vitse-Prezidenti, Türkiyə tərəfindən komissiyanın həmsədri Fuat Oktay rəhbərlik edəcəklər.

İclasda hər iki tərəfdən komissiya üzvləri olan nazirlik, qurum və digər təşkilatların nümayəndələri iştirak edəcəklər. Görüşdə hər iki ölkənin iqtisadi-ticari əlaqələrinin mövcud vəziyyəti, genişləndirilməsi və iqtisadi münasibətlərin davamlılığının təmin olunması ilə bağlı məsələlərin müzakirə olunması nəzərdə tutulub. Hazırda Hökumətlərarası Birgə Komissiyanın gündəliyində dayanan məsələləri razılaşdırmaq üçün Türkiyənin müvafiq dövlət qurumlarının nümayəndələri Azərbaycandakı tərəfdaşları ilə hazırlıq işləri aparırlar.

Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında iqtisadi əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiya 1992-ci il noyabrın 2-də Ankarada imzalanan "Azərbaycan Hökuməti ilə Türkiyə Hökuməti arasında ticarət və iqtisadi əməkdaşlıq Saziş"inə uyğun olaraq yaradılıb. Bugünədək komissiyanın 7 iclası keçirilib. Avqust ayının sonlarından başlayaraq Birgə Hökumətlərarası Komissiyanın ayrıca informasiya resursu - "Twitter" hesabı (@AzTurCom) fəaliyyət göstərir. Azərbaycan Respublikası Nazirlər Kabineti tərəfindən yaradılan bu rəsmi hesabda Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında iqtisadi əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiyanın fəaliyyəti, o cümlədən iki qardaş ölkənin əlaqələri ilə bağlı məlumatlar paylaşılır.

# Milli Məclisdə Rusiyanın Sverdlovsk vilayəti Qanunvericilik Məclisinin Sədri ilə görüş olub



Sentyabrın 12-də Milli Məclisin Sədri Oqtay Əsədov ölkəmizdə səfərdə olan Rusiya Federasiyası Sverdlovsk vilayətinin Qanunvericilik Məclisinin Sədri Lyudmila Babuşkinanın başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, Sədr bu görüşün Rusiyanın Sverdlovsk vilayəti ilə Azərbaycan arasında əməkdaşlığın inkişafına yeni töhfə verəcəyinə inamını söylədi. Bildirildi ki, Azərbaycan və Rusiya prezidentləri arasında münasibətlərin yüksək səviyyədə olması dövlətlərarası əlaqələrə öz təsirini göstərir. Heç də təsadüfi deyil ki, Azərbaycan-Rusiya əlaqələri artıq keyfiyyətcə yeni mərhələyə - strateji tərəfdaşlıq mərhələsinə qədəm qoyub. Ölkələrimiz arasında bugünədək 230-a yaxın sənəd imzalanıb, 44 sənəd üzərində iş davam etdirilir. Bütün bunlar əməkdaşlığımızın möhkəm hüquqi bazaya əsaslandığının göstəricisidir. Azərbaycan Rusiyanın subyektləri, o cümlədən müxtəlif regionları ilə əlaqələrin daha da dərinləşməsinə böyük önəm verir. Bu gün Rusiya Federasiyasının 70-dən çox subyekti, 20-dək regionu ilə iqtisadi-ticari, elmi-texniki və mədəni əməkdaşlıq üzrə saziş imzalanıb. Hökumətlərarası və parlamentlərarası komissiyaların fəaliyyəti əməkdaşlığımızın inkişafına xidmət edir. Cari ildə ötən illə müqayisədə ticarət dövriyyəmizin həcmi müvafiq dövrə nisbətən 300 milyon ABŞ dolları həcmindən çox olub. Biz gələcəkdə bu sahədə dövriyyəni 3 milyard dollara çatdırmaq niyyətindəyik.

Sədr bildirdi ki, Milli Məclislə Sverdlovsk vilayətinin qanunvericilik orqanı arasında əlaqələrin inkişafı günün tələbidir. Milli Məclis Rusiya Federasiyasının Dövlət Duması və Federal Şurası ilə sıx əməkdaşlıq edir. Parlamentdə Rusiyanın qanunvericilik orqanı ilə dostluq qrupu fəaliyyət göstərir. Deputatlarımız mütəmadi olaraq Rusiyaya səfərlər edirlər. Biz Rusiyanın regionları, o cümlədən Sverdlovsk vilayəti ilə bu sahədə əlaqələrimizi dərinləşdirmək istərdik.

Lyudmila Babuşkina ölkəmizə səfərindən və burada keçirdiyi görüşlərdən məmnun qaldığını söylədi. Qonaq təmsil etdiyi vilayətin Rusiyanın inkişaf etmiş ən iri bölgələrindən biri olduğunu dedi. Qeyd edildi ki, Sverdlovsk vilayəti ilə Azərbaycan arasında iqtisadi, mədəni, humanitar sahələrdə əməkdaşlığın genişləndirilməsi xalqlarımızın mənafeyinə uyğundur.

Söhbət zamanı tərəfləri maraqlandıran məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

Görüşdə Rusiya ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun başçısı, komitə sədri Əli Hüseynli, deputat Mixail Zabelin, parlament Aparatının rəhbəri Səfa Mirzəyev, Rusiyanın ölkəmizdəki səfiri Mixail Boçarnikov və digər rəsmi şəxslər iştirak ediblər.

# Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Möhtərəm cənab Prezident!

Qafqaz bölgəsi dindarlarının arzu və iradəsini ifadə edərək Sizə - Azərbaycan xalqının ləyaqətli oğluna, dövlət rəhbərimizə və dünyanın tanınmış siyasi xadiminə salamlarımı və təşəkkürlərimi ünvanlayıram. 70 illik yubileyim və Şeyxülislam kimi fəaliyyətimin 40 illiyi münasibətilə Zati-aliləriniz tərəfindən dövlətin ən yüksək ali təltifatına - "Heydər Əliyev" ordeninə layiq görülməyim şəxsimə və Azərbaycan dindarlarına olan yüksək hörmət və etimadın göstəricisi, islam aləmində və dini mərkəzlər tarixində nadir rast gəlinən müstəsna hadisədir. Müstəqil dövlətimizin ali dövlət mükafatını din xadiminə təqdim etməklə Siz, Zati-aliləri, dünya tarixinin ictimai-mənəvi dəyərlər müstəvisində yeni bir səhifə açdınız. Sizin alicənablığınız sayəsində Şeyxülislamın fəaliyyətinə verilən qiymət, eyni zamanda, Azərbaycan dövlətində milli-dini dəyərlərə olan özəl münasibətin, Zati-alilərinizin ölkəmizin hüdudlarından keçib Qafqaz regionuna, islam dünyasına və beynəlxalq ictimaiyyətə qədər irəliləyən şöhrətinin sübutu və təqdiridir.

Zati-aliləri! Azərbaycanın dövlət müstəqilliyinin möhkəmlənməsi, iqtisadi qüdrətinin artması istiqamətində misilsiz səyləriniz qürur mənbəyimizdir. Azərbaycandakı din-dövlət münasibətlərinin yüksək səviyyəsinin təmini istiqamətində əməli addımlarınız, milli-mədəni irsin dirçəlişinə göstərdiyiniz maddi və mənəvi yardım, dini abidələrə dövlət səviyyəsində qayğı və himayə müdrik siyasətin nümunəsi kimi beynəlxalq aləmdə yüksək dəyərləndirilir. Fəxrlə deyə bilərik ki, Azərbaycanın dünya miqyasında mədəniyyətlər, sivilizasiyalar, dinlərarası dialoq prosesində bugünkü uğurları, aparıcı rolu Sizin siyasi iradə və qlobal təşəbbüslərinizdən qaynaqlanır. Zati-alilərinizin XXI əsrdə bəşəriyyətin mənəvi ehtiyac duyduğu və zamanın tələblərinə cavab verən qlobal ideyaları, müəllifi olduğunuz Bakı prosesi, elan etdiyiniz Multikulturalizm, İslam Həmrəyliyi illəri sayəsində Azərbaycanın adı tarixin səhifələrinə nümunəvi tolerantlıq və bəşəri həmrəylik məkanı kimi yazılır. Dünya dini liderlərinin II Bakı Sammitinin keçirilməsi haqqında Zati-alilərinizin tarixi qərarı beynəlxalq ictimaiyyət, nüfuzlu dini liderlər tərəfindən yüksək dəyərləndirilir. Zati-alilərinizin xeyir-duası ilə Qafqaz Müsəlmanları İdarəsi nəzdində yaradılmış Bakı Beynəlxalq Dinlərarası və Sivilizasiyalararası Əməkdaşlıq Mərkəzi Sizin ideyalarınızın təntənəsi olub, Azərbaycanın dünya miqyasında bu istiqamətdə fəaliyyətlərin mərkəzi statusunu bir daha təsdiq etdi.

Zat-aliləri! Məni Azərbaycan dövlətinin ali mükafatı - "Heydər Əliyev" ordeni ilə təltif etməyiniz mənim üçün olduqca böyük fəxarət, qürur mənbəyidir. Ulu Öndərin adını daşıyan ali dövlət mükafatı bütün təltifatlarımın ən uca zirvəsi oldu. Adı və xatirəsi mənim üçün əziz olan qardaşımın adını əbədiləşdirən bu ordenin mənim üçün nə qədər böyük mənalar kəsb etdiyini sözlə ifadə etmək çətindir. Azərbaycan xalqı, Azərbaycan dindarları, Şeyxülislam olaraq şəxsən mən Zati-alilərinizin əməllərində ulu öndər Heydər Əliyevin uca mənəviyyat yolunun davamını görməkdən şərəf duyuruq.

Möhtərəm cənab Prezident! Doğum günümdə mənə ünvanladığınız səmimi təbrik məktubunda fəaliyyətimə verdiyiniz dəyərlə fəxr duyur, şəxsimə göstərdiyiniz diqqətə, tutduğum məqama nümayiş etdirdiyiniz ehtirama görə bir daha Sizə dərin təşəkkürlərimi və minnətdarlığımı bildirirəm. Azərbaycan xalqının rifahı, dövlətimizin qüdrətinin artması, ərazi bütövlüyümüzün bərpası naminə misilsiz fəaliyyətinizə Allah-Təaladan uğurlar diləyir, Sizə və gözəl ailənizə ən xoş arzularımı yetirirəm.

Zati-aliləri! Biz, din xadimləri, bütün Azərbaycan xalqı inanırıq ki, Ulu Yaradanın köməyi, Sizin rəhbərliyinizlə Azərbaycan dünya miqyasında daha böyük uğurlara imza atacaqdır və biz Sizin kimi müdrik dövlət rəhbərimizin varlığı ilə hər zamankı kimi iftixar duyacağıq. Uca Allah daima yardımçınız olsun, Lütf və Mərhəmətini Azərbaycan xalqı və dövləti üzərində bərqərar etsin!

*Dərin hörmət və ehtiramla,*

***Şeyxülislam***
***Allahşükür PAŞAZADƏ***

# Bakıda Ümumdünya Mətbuat Şuraları Assosiasiyasının illik toplantısı keçirilir

Sentyabrın 12-də Bakıda Ümumdünya Mətbuat Şuraları Assosiasiyasının illik toplantısı öz işinə başlayıb.

AZƏRTAC xəbər verir ki, iki gün davam edəcək tədbirdə Asiya, Avropa və Afrikanın 20-yə yaxın ölkəsindən nümayəndələr, BMT, Avropa Şurası kimi beynəlxalq təşkilatların, o cümlədən yerli media qurumlarının rəhbərləri və ekspertlər iştirak edirlər.

Azərbaycan Mətbuat Şurasının sədri Əflatun Amaşov bildirib ki, Ümumdünya Mətbuat Şuraları Assosiasiyası 1992-ci ildə yaradılıb. ABŞ-ın bir sıra ştatlarının, Türkiyə, Hindistan, Pakistan, Banqladeş, Nepal, Zimbabve, Keniya və digər ölkələrin jurnalistləri belə bir qurum yaradıblar. O vaxtdan indiyədək quruma üzv ölkələrdə tədbirlər keçirilir və jurnalistlərin qarşılaşdığı problemlər, informasiya əldə etmələri ilə bağlı yaranmış çətinliklərin aradan qaldırılması ilə əlaqədar təkliflər səsləndirilir. Ümumilikdə toplantıda dünyada medianın inkişaf meyilləri müzakirə olunur.

Mətbuat Şurasının sədri Azərbaycanda media sahəsində əldə edilən uğurlar barədə danışıb. Bildirib ki, 1998-ci ildə ölkəmizdə senzura ləğv edilib, kütləvi informasiya vasitələri ilə bağlı qanunvericilik bazası təkmilləşdirilib, media tam müstəqildir. Azərbaycanda internet media da fəaliyyətini uğurla davam etdirir. Ölkəmizdə 3 milyona yaxın insan sosial şəbəkədən istifadə edir. Azərbaycanda etnik qruplar sülh və əmin-amanlıq şəraitində yaşayırlar. Media da bu istiqamətdə dövlət siyasətini dəstəkləyir.

Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov tədbirdə çıxış edib. Dünya Mətbuat Şuraları Assosiasiyasının Bakı toplantısının iştirakçılarını Prezident İlham Əliyev və hökumətimiz adından salamlayan Əli Həsənov deyib ki, Azərbaycan milli mətbuatı və digər kütləvi informasiya vasitələri yüz ildən artıq bir tarix çərçivəsində müxtəlif inkişaf mərhələlərini keçərək ictimai həyatımızın ayrılmaz tərkib hissəsinə və vətəndaş cəmiyyətinin hərəkətverici qüvvələrindən birinə çevrilib. 1991-ci ildə müstəqilliyini yenidən bərpa etdikdən sonra - 1995-ci ildə qəbul olunmuş Azərbaycan Respublikasının Yeni Konstitusiyasında fikir və söz azadlığının əsas insan hüquqları sırasında öz əksini tapması KİV-in inkişafında yeni tarixi mərhələnin bünövrəsini qoyub. Prezident Heydər Əliyevin 1998-ci il avqustun 6-da imzaladığı fərmanla KİV üzərində senzuranın ləğv edilməsi, kənar təsir olmadan özünütənzimləyən azad medianın yaradılması üçün ölkəmizdə geniş perspektivlər açıldı. Sonrakı dövrdə kütləvi informasiya vasitələri, informasiyanın əldə olunması, milli teleradio yayımı, ictimai televiziya, informasiya azadlığı və digər sahələrlə bağlı yeni qanunların qəbul olunması KİV-in inkişafını təmin edən zəruri qanunvericilik bazası kimi çıxış etdi.

Ötən 25 ildə ölkəmizdə kütləvi informasiya vasitələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi, jurnalistlərin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində atılan mühüm addımları xatırladan Əli Həsənov qeyd edib ki, Azərbaycan Prezidentinin sərəncamları ilə 1998-ci ilin sonunda yerli KİV əlavə dəyər vergisindən azad edilib, ölkəyə gətirilən çap məmulatlarına tətbiq edilən gömrük rüsumları ləğv olunub, media vasitələrinin dövlətə olan borcları silinib və əlavə olaraq onlara uzunmüddətli və güzəştli kreditlərin verilməsi işi təmin edilib.




Əli Həsənov bildirib ki, ölkəmizdə KİV-in, xüsusən də yazılı medianın inkişafına mühüm təsir göstərən əsas addımlardan biri də 2008-ci il iyulun 30-da Azərbaycan Prezidentinin sərəncamı ilə "Azərbaycan Respublikasında kütləvi informasiya vasitələrinin inkişafına dövlət dəstəyi Konsepsiyası"nın qəbul edilməsi və həmin sənədin tələblərinə uyğun olaraq 2009-cu ildə Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun (KİVDF) yaradılması olub. 2009-cu ildən başlayaraq KİV layihələrinin maliyyələşdirilməsi üçün dövlət büdcəsindən mediaya və jurnalistlərin ehtiyacı üçün on milyonlarla manat vəsait ayrılıb. Bundan başqa, Azərbaycan Prezidentinin sərəncamları ilə jurnalistlər üçün çoxmənzilli iki yaşayış binası tikilib istifadəyə verilib, üçüncünün tikintisi isə hazırda davam edir. 2000-ci ildən Azərbaycan milli mətbuatının yubileyləri mütəmadi olaraq dövlət səviyyəsində qeyd olunur. 2005-ci, 2010-cu, 2015-ci və 2016-cı illərdə yüzlərlə jurnalist fəxri ad və dövlət mükafatları ilə təltif olunub. Bütün bunlar ölkənin informasiya tələbatının tam ödənilməsi üçün KİV-in fəaliyyətinə böyük stimul verib. Hazırda Azərbaycanda rəsmi qeydiyyatdan keçmiş KİV-in ümumi sayı 5000-dən çoxdur. KİV-in kəmiyyət göstəricilərinə görə Azərbaycan MDB və Şərqi Avropa ölkələri arasında birincilər sırasındadır. Ölkədə 40-dək gündəlik, 200-dən çox həftəlik və aylıq qəzet-jurnal və digər media nümunələri nəşr olunur. 300-ə yaxın xəbər və analitik internet saytı, 20-yə yaxın informasiya agentliyi, rayonlarda və bölgələrdə isə 100-ə yaxın KİV fəaliyyət göstərir. Ölkəmizdə 11 ümumrespublika, 4 peyk, 17 kabel, 25 internet televiziyası və 13 regional televiziya, 14 radio fəaliyyətdədir. 2005-ci ildə Azərbaycanda İctimai Televiziya və Radio Yayımları Şirkəti təsis edilib və hazırda uğurla fəaliyyət göstərir. Bu gün Azərbaycanda 50-dən artıq jurnalist təşkilatı qeydə alınıb, 30-dək təşkilat söz və məlumat azadlığının, mətbuatın iqtisadi müstəqilliyinin gücləndirilməsi, jurnalistlərin hüquqlarının müdafiəsi, cəmiyyətlə media arasında münasibətlərin tənzimlənməsi və digər məsələlərlə fəal məşğul olur. Mətbuat yayımını həyata keçirən müstəqil kommersiya şirkətlərinin sayı 23-ə çatıb.

Azərbaycanda internet və sosial şəbəkələrin fəaliyyəti haqqında məlumat verən Əli Həsənov diqqətə çatdırıb ki, hazırda ölkəmizdə internet istifadəçilərinin sayı ümumi əhalinin 80 faizindən çoxdur və bu göstəricilərə görə Azərbaycan dünya ölkələri arasında birinci sıralarda bərqərar olub. Az. domenində qeydiyyatdan keçən internet saytlarının sayı 20 mini ötüb. Bununla yanaşı, Azərbaycanda azad sözə və fikrə dövlət səviyyəsində yüksək əhəmiyyət verilməsinin nəticəsidir ki, transmilli media qurumlarının ölkə ərazisində verilişlərinin yayılmasında heç bir məhdudiyyət yoxdur, eyni zamanda, vətəndaşların "Facebook", "Twitter", "Youtube", "Instaqram" kimi sosial şəbəkələrə sərbəst çıxışı təmin edilib. Ölkədə sosial şəbəkə istifadəçilərinin sayı 3 milyon nəfərdən artıqdır ki, bu da cəmi 10 milyon əhalisi olan Azərbaycan üçün çox böyük göstəricidir. Sosial şəbəkələrə dövlət səviyyəsində verilən əhəmiyyətin göstəricilərindən biri də odur ki, Azərbaycan Prezidenti İlham Əliyevin və əksər dövlət qurumlarının, ayrı-ayrı vəzifəli şəxslərin rəsmi sosial profilləri fəaliyyət göstərir. Hakimiyyət sosial şəbəkələrdə qaldırılan məsələlərə mütəmadi olaraq öz münasibətini bildirir, internetə məlumat mənbələrindən biri kimi yanaşır və ondan istifadə edir.

Prezidentin ictimai-siyasi məsələlər üzrə köməkçisi deyib ki, son illərdə sosial şəbəkələr ictimai rəyin formalaşmasına təsir imkanlarını artırmağa çalışır. Lakin burada bir məqamı qeyd etməliyik ki, sosial şəbəkələrin rolunu müsbət xarakterizə edən cəhətlərlə yanaşı, mənfi meyillər də özünü göstərir. Sosial şəbəkələrin meydana gəlməsi bir tərəfdən söz və öz fikrini ifadə etmək azadlığının təmin olunmasında yeni perspektivlər açır. Digər tərəfdən, sosial şəbəkələrlə insan hüquqları arasındakı qarşılıqlı təsir bəzən xoşagəlməz vəziyyət yaradır. Məsələn, sosial şəbəkələrdə insanların şərəf və ləyaqətinin alçaldılması halları baş verir ki, bu da insan hüquqlarının pozulması deməkdir. Təəssüf ki, bu cür mənfi hallar bəzən transmilli medianın fəaliyyətində də özünü göstərir. Transmilli media qurumlarının verilişlərinin ölkədə yayılmasının müsbət cəhəti bundan ibarətdir ki, əhali dünyada baş verən proseslərlə bağlı operativ məlumatlar əldə etmək imkanı qazanır. Burada özünü göstərən mənfi xüsusiyyət isə ondadır ki, bəzən müxtəlif siyasi dairələrin və yaxud lobbi qruplarının təsiri ilə transmilli media qurumları ictimai rəyi manipulyasiyaya məruz qoymağa çalışır, obyektivlik və bitərəflik kimi prinsiplərə zidd olaraq qərəzli, subyektiv informasiyalar yayır.

Əli Həsənov çıxışını aşağıdakı fikirlərlə tamamlayıb: "Azərbaycan hakimiyyəti hazırda söz və mətbuat azadlığının, KİV-in inkişafının təmin edilməsini dövlət siyasətinin əsas istiqamətlərindən biri hesab edir. Azərbaycan dünyanın və bölgəmizin azsaylı ölkələrindəndir ki, hələ 1998-ci ildə Mətbuat və İnformasiya Nazirliyini ləğv edib və mətbuatın dövlət tənzimlənməsindən birmənalı şəkildə imtina edib. Azərbaycan dövləti bu işi hazırda ölkə jurnalistlərinin öhdəsinə buraxıb ki, onlar da öz ümumi toplantılarında jurnalistlərin vahid ictimai təşkilatı olan Mətbuat Şurasını yaradıblar. KİV-in fəaliyyətinin dəstəklənməsi və siyasi plüralizmin genişləndirilməsi siyasətini də biz məhz yaratdığımız KİVDF, o cümlədən Mətbuat Şurası vasitəsilə həyata keçirməyə çalışırıq. Mətbuat Şurası bu istiqamətdə dövlətin əsas tərəfdaşıdır. Ölkə jurnalistlərinin ictimai maraqlarının yeganə təminatçısı kimi çıxış edən bu qurum uğurlu fəaliyyət göstərir və bugünkü möhtəşəm toplantı da bunun əyani sübutudur. Dünya ölkələrini təmsil edən əksər mətbuat şuralarını Bakıya toplamaq və milli-transmilli jurnalistikanın, azad medianın problem və uğurlarını müzakirə etmək bacarığı bunun göstəricisidir.

Türkiyənin Azərbaycandakı səfiri Erkan Özoral deyib ki, qardaş ölkələr olan Türkiyə və Azərbaycan mədəniyyət, tarix baxımından bir millət, iki dövlətdir. Türkiyə və Azərbaycanın həyata keçirdiyi beynəlxalq layihələrlə qürur duyuruq və bu prosesi davam etdirməkdə israrlıyıq.

Səfir qeyd edib ki, Türkiyə Azərbaycanın ən böyük problemi olan Dağlıq Qarabağ məsələsinin tez bir zamanda həllini vacib sayır. Xocalıda yüzlərlə insanı qətlə yetirən ermənilər Türkiyəni soyqırımı törətməkdə ittiham edirlər. Bütün bu qarayaxmalara qarşı gerçəkləri dünyaya göstərmək Türkiyə və Azərbaycan mediasının üzərinə düşən ən böyük vəzifələrdən biridir.

BMT-nin Qlobal Kommunikasiyalar Departamentinin Azərbaycan üzrə təmsilçisi Rəşad Hüseynov, Avropa Şurasının Bakı ofisinin nümayəndəsi Pərvanə Bayramova və digər çıxış edənlər Ümumdünya Mətbuat Şuraları Assosiasiyasının yaranma tarixindən və fəaliyyətindən, eləcə də müasir medianın üzləşdiyi problemlərdən və qarşısında duran vəzifələrdən bəhs ediblər. Toplantı sentyabrın 13-də işini plenar sessiyalarla davam etdirəcək.

## *Əli HƏSƏNOV:* "Milli birlik, həmrəylik Azərbaycanın alternativsiz reallığıdır"

Azərbaycanda 1993-cü ildən milli birlik - vətəndaş həmrəyliyi siyasəti yürüdülür. Siyasi partiyalar cəmiyyətin institutlarıdır. Azərbaycan iqtidarı ilə cəmiyyətin digər təmsilçiləri - qeyri-hökumət təşkilatlarının, media və siyasi partiya nümayəndələrinin ünsiyyəti bütün dövrlərdə aktual olub. Biz milli birliyi, həmrəyliyi Azərbaycanın alternativsiz reallığı kimi dəyərləndiririk. Milli birliyin, həmrəyliyin alternativini görmürük.

AZƏRTAC xəbər verir ki, bu sözləri Azərbaycan Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov sentyabrın 12-də Ümumdünya Mətbuat Şuraları Assosiasiyasının Bakıda keçirilən illik toplantısında jurnalistlərə müsahibəsində deyib.

Dialoqun əksinin qarşıdurma və qeyri-qanuni mübarizə olduğunu bildirən Əli Həsənov deyib: "Biz dialoqu



yüksək dəyərləndiririk, istənilən halda Azərbaycan cəmiyyəti üçün dialoq həmişə aktualdır. Sentyabrın 11-də belə bir tədbir keçirilib. Düşünürəm ki, siyasi partiyalar, media və qeyri-hökumət təşkilatları bu istiqamətdə fəaliyyətlərini məhdudlaşdırmayacaqlar. Gələcəkdə həm daxili, həm xarici siyasətlə bağlı dialoq masası arxasında müzakirələr aparıla bilər".

Siyasi mübarizəsini söyüş üzərində quran bəzi insanların fəaliyyətinə münasibət bildirən Əli Həsənov vurğulayıb ki, söyüş və təhqirdən istifadə edənlərə müxalifət demək olmaz. "İnsanlar var ki, Azərbaycanı müxtəlif səbəblərə görə tərk edib, xarici ölkədə özünə bir vasitə ilə sığınacaq tapıblar. Təəssüflər olsun ki, onlar anti-Azərbaycan dairələrinin əlində alətə çevriliblər. Anti-Azərbaycan dairələrinin maliyyələşməsində erməni fondları da iştirak edir. Xarici ölkələrdə onlardan Azərbaycana qarşı çirkin formada istifadə edirlər. Bu, Azərbaycan millətinin adına ləkədir. Düşünürəm ki, onlar nə vaxtsa Azərbaycan xalqına məxsus dəyər nümayiş etdirərək bu yoldan çəkinəcəklər", - deyə Prezidentin köməkçisi bildirib.

## Bakıda Ukraynanın Müstəqillik Günü münasibətilə rəsmi qəbul təşkil edilib






Sentyabrın 12-də Bakıda Ukraynanın dövlət müstəqilliyinin 28-ci ildönümü münasibətilə rəsmi qəbul təşkil edilib.

AZƏRTAC xəbər verir ki, Ukraynanın Azərbaycandakı səfirliyi tərəfindən təşkil olunan rəsmi qəbulda əvvəlcə hər iki ölkənin Dövlət himnləri səsləndirilib.

Sonra çıxış edən səfir Vladislav Kanevski 28 il ərzində Ukraynanın keçdiyi inkişaf yolundan danışıb. O deyib ki, bu nailiyyətlər heç də asan başa gəlməyib.

Diplomat bildirib ki, bu gün Azərbaycan və Ukrayna birgə çoxsaylı layihələr həyata keçirir. O, əməkdaşlığın gələcəkdə də uğurla davam edəcəyinə əminliyini ifadə edib. Səfir, həmçinin ölkəsinin suverenliyi və ərazi bütövlüyü ilə bağlı dəyişməz mövqeyinə görə Azərbaycan dövlətinə təşəkkür edib. Rəsmi qəbulda çıxış edən Xarici İşlər nazirinin müavini Xələf Xələfov Azərbaycan hökuməti adından Ukrayna xalqını təbrik edib, sülh və əmin-amanlıq arzulayıb. Nazir müavini bildirib ki, iki ölkə arasında münasibətlər inkişaf edir. Azərbaycan və Ukrayna beynəlxalq təşkilatlar çərçivəsində sıx əməkdaşlıq edirlər. Ukrayna Azərbaycanın etibarlı iqtisadi tərəfdaşıdır. Bir çox sahələrdə olduğu kimi, enerji sahəsində də sıx əlaqələr var. Ölkələrimiz arasında strateji tərəfdaşlıq qarşılıqlı səylər nəticəsində daha da möhkəmlənir.

Tədbirdə dövlət və hökumət rəsmiləri, Milli Məclisin deputatları, xarici ölkələrin Azərbaycandakı səfirləri, media nümayəndələri iştirak ediblər.

## *Ukrayna XİN:* Dağlıq Qarabağda keçirilən qondarma "seçkilər" beynəlxalq hüququn prinsiplərini kobud şəkildə pozur

Ukrayna Azərbaycan Respublikasının Ermənistan silahlı qüvvələrinin işğalı altında olan Dağlıq Qarabağ bölgəsində sentyabrın 8-də "yerli özünüidarəetmə orqanları"na keçirilən "seçkilər"i tanımır və qanunsuz hesab edir. Bu barədə AZƏRTAC-a açıqlamasında Ukrayna Xarici İşlər Nazirliyinin mətbuat xidməti bildirib.

"Qondarma "seçkilər" Azərbaycan Respublikasının Konstitusiyasını və beynəlxalq hüququn prinsiplərini kobud şəkildə pozur", - deyə məlumatda qeyd edilir. Məlumatda deyilir: "Ukraynanın Dağlıq Qarabağ münaqişəsi ilə bağlı mövqeyi dəyişməz olaraq qalır. Hesab edirik ki, Dağlıq Qarabağ münaqişəsi Azərbaycanın ərazi bütövlüyü və suverenliyi, beynəlxalq aləmin tanıdığı sərhədlər çərçivəsində həllini tapmalıdır".

## YAP və Çin Kommunist Partiyası arasında əlaqələrin 20 illiyi münasibətilə Pekində konfrans keçirilib

Çinin paytaxtı Pekində Yeni Azərbaycan Partiyası (YAP) və Çin Kommunist Partiyası (ÇKP) arasında əlaqələrin qurulmasının 20 illiyi münasibətilə konfrans keçirilib.

AZƏRTAC xəbər verir ki, YAP ilə ÇKP arasında dövlət idarəçiliyi sahəsində təcrübə mübadiləsinə dair "Xalqların rifahı naminə" mövzusunda keçirilən konfransda çıxış edən ÇKP-nin beynəlxalq əlaqələr şöbəsinin nazir statusunda rəhbəri Sun Tao hər iki ölkədə uzun illərdir hakimiyyətdə olan Yeni Azərbaycan Partiyası ilə Çin Kommunist Partiyasının səmimi dostluq və etibarlı tərəfdaşlıq əlaqələrinin olduğunu deyib. Ötən 20 ildə iki partiya arasında sıx təmaslar qurulub, qarşılıqlı səfərlər həyata keçirilib, təcrübə mübadiləsi aparılıb.

"İki partiya arasında əməkdaşlıq hazırda davamlı inkişaf edərək möhkəmlənir. Bu gün biz dövlət idarəçiliyi sahəsində təcrübə mübadiləsi aparmaqla təntənəli şəkildə münasibətlərimizin 20 illiyini qeyd edirik. Qarşılıqlı səfərlər bu əməkdaşlığın möhkəmlənməsində xüsusi rol oynayır. Tarix göstərir ki, iki partiya arasında yaxınlaşma, əməkdaşlığın dərinləşməsi dövlət başçılarının iradəsi sayəsində mümkün olub. Hər iki partiya xalqa söykənərək dövlətin inkişafı üçün çalışır", - deyə Sun Tao bildirib.

O, təmsil etdiyi partiyanın Çin dövlətinin inkişafı, xalqın rifah halının yüksəlməsi istiqamətində gördüyü işlərdən danışıb, ötən 70 ildə Çin Xalq Respublikasının Kommunist Partiyasının idarəçiliyi ilə əldə etdiyi uğurlardan danışıb.

Sun Tao Çin Kommunist Partiyasının yaxşı dost və tərəfdaş kimi Yeni Azərbaycan Partiyasının dövlət idarəçiliyi konsepsiyasını yüksək qiymətləndirdiyini deyib. Görkəmli dövlət xadimi Heydər Əliyevin və Prezident İlham Əliyevin lideri olduğu Yeni Azərbaycan Partiyası ölkənin inkişafı üçün siyasi və iqtisadi islahatlar aparıb. Biz YAP-ın bu istiqamətdə qazandığı uğurlara sevinirik. Tarixi İpək yolu Çin və Azərbaycana sarsılmaz dostluq əlaqələri bəxş edib. Müasir dövrdə isə "Bir kəmər, bir yol" təşəbbüsünün həyata keçirilməsində ölkələrimiz sıx əməkdaşlıq edir.




YAP Siyasi Şurasının üzvü, Milli Məclisin komitə sədri Hadi Rəcəbli Azərbaycanın Çin Xalq Respublikası ilə ikitərəfli münasibətlərə xüsusi əhəmiyyət verdiyini, əlaqələrin bütün sahələrdə dərinləşməsində və genişlənməsində maraqlı olduğunu deyib.

Yeni Azərbaycan Partiyasının banisi, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 1994-cü ilin martında ÇXR-ə rəsmi səfəri ilə əsası qoyulmuş yüksəksəviyyəli siyasi dialoq Prezident İlham Əliyev tərəfindən də uğurla inkişaf etdirilib və ikitərəfli əlaqələrimiz keyfiyyətcə yeni mərhələyə yüksəlib.

Məhz bu cür sıx əməkdaşlıq münasibətləri iki ölkənin hakim partiyaları - Yeni Azərbaycan Partiyası və Çin Kommunist Partiyası arasında fəal əməkdaşlığın formalaşmasına münbit şərait yaradıb. Bu cür yüksəksəviyyəli əlaqələr sayəsində hakim partiyalar arasında qarşılıqlı səfərlər təşkil olunur, dövlət və cəmiyyət idarəçiliyi sahəsində təcrübə mübadilələri həyata keçirilir.

Milli Məclisin komitə sədri Azərbaycanın və Çinin bir-birinin milli maraqları üçün müstəsna əhəmiyyət kəsb edən məsələlərdə daim qarşılıqlı dəstək nümayiş etdirdiklərini deyib. Belə ki, Azərbaycan "Vahid Çin" siyasətini, Çin isə Azərbaycanın ərazi bütövlüyünü, suverenliyini və sərhədlərinin toxunulmazlığını dəstəkləyir. Çin Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin BMT-nin Təhlükəsizlik Şurasının məlum qətnamələrinə müvafiq olaraq həllinə tərəfdardır.

Qeyd olunub ki, Çinin dövlət başçısı tərəfindən irəli sürülmüş "Bir kəmər, bir yol" təşəbbüsü ikitərəfli münasibətlərimizin genişləndirilməsinə və dərinləşməsinə yeni imkanlar yaradıb. Azərbaycan bu təşəbbüsü ilk dəstəkləyən ölkələrdən biri olaraq reallaşdırdığı irimiqyaslı nəqliyyat-infrastruktur layihələri ilə onun həyata keçirilməsinə öz əhəmiyyətli töhfəsini verməkdədir. Bu xüsusda Azərbaycan Prezidenti İlham Əliyevin cari il aprelin 25-27-də Pekin şəhərində keçirilmiş II "Bir kəmər, bir yol" Beynəlxalq Əməkdaşlıq Forumunda iştirakı ölkələrimizin sözügedən təşəbbüsü birgə reallaşdırmağa sadiqliklərinin bir daha təsdiqi kimi dəyərləndirilməlidir.

Hadi Rəcəbli Azərbaycanın əldə etdiyi uğurlardan, iqtisadiyyatın inkişafından, əhalinin sosial rifah halının yüksəlməsindən, beynəlxalq aləmdə artan nüfuzundan danışıb.

Konfransda digər çıxış edənlər hakim partiyaların müxtəlif istiqamətlərdə fəaliyyətindən, ölkələrimizin və partiyaların münasibətlərindən danışıblar.

## YAP nümayəndə heyəti Çin Kommunist Partiyası Mərkəzi Komitəsinin Ali Partiya Məktəbində olub

Sentyabrın 12-də Yeni Azərbaycan Partiyasının (YAP) nümayəndə heyəti Çin Kommunist Partiyası Mərkəzi Komitəsinin Ali Partiya Məktəbinin beynəlxalq əməkdaşlıq şöbəsinin direktoru xanım Dun Tsin və məktəbin təhsil şöbəsinin direktoru xanım Lo Mintsi ilə görüşüb.

YAP-ın mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, görüşdə Ali Partiya Məktəbinin strukturu, təhsilin məzmunu və prinsipləri haqqında məlumat verilib.

YAP nümayəndə heyətinin rəhbəri, Milli Məclisin komitə sədri Hadi Rəcəbli dövlət idarəçiliyi sahəsində peşəkar kadrların hazırlanmasına dair Azərbaycanın təcrübəsindən bəhs edib, həmçinin Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının fəaliyyəti haqqında məlumat verib.

Sonda YAP adından müxtəlif hədiyyələr Çin Ali Partiya Məktəbinə təqdim olunub.

# Müdafiə naziri “TurAz Qartalı - 2019” təlimlərində iştirak edən şəxsi heyətlə görüşüb



Müdafiə naziri, general-polkovnik Zakir Həsənov, nazirliyin rəhbər heyəti və Türkiyə Respublikasının Azərbaycandakı hərbi attaşesi, briqada generalı İsmail Hakkı Köseali “TurAz Qartalı - 2019” birgə taktiki-uçuş təlimlərində iştirak edən Azərbaycan və Türkiyə Hərbi Hava qüvvələri aviasiya vasitələrinin cəmləşdiyi aerodroma gəliblər.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, əvvəlcə hər iki ölkənin Dövlət himnləri səsləndirilib, Ümummilli Lider Heydər Əliyevin və ölkələrimizin müstəqilliyi uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib. General-polkovnik Zakir Həsənov təlimlərdə iştirak edən şəxsi heyəti salamlayaraq çıxışına Ümummilli Lider Heydər Əliyevin “Bir millət, iki dövlət” və türk xalqının öndəri Mustafa Kamal Atatürkün “Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir” kəlamları ilə başlayıb. Ölkələrimizin təhlükəsizliyi baxımından təlimlərin əhəmiyyətini yüksək qiymətləndirən Müdafiə naziri bunun hərbi gücümüzün daha bir nümunəsi olduğunu qeyd edib. O, təlim iştirakçılarına uğurlar arzulayaraq döyüş aviasiyasının uçuşlarının yüksək səviyyədə keçirilməsindən məmnunluğunu ifadə edib.

Sonra təlimlərin yekununa dair yüksəksəviyyəli qonaqlara brifinq təqdim edilib.

Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin yaradıcı heyətinin konsert proqramından sonra təlim iştirakçılarına hədiyyələr təqdim olunub.

Sonra qonaqlar və təlim iştirakçıları birgə nahar ediblər.

Pakistan İslam Respublikası Hərbi Hava Qüvvələrinin nümayəndələri təlimlərdə müşahidəçi qismində iştirak edib.

*Lilian Mori PASKİE:*

# “AŞ PA Azərbaycan ilə əlaqələrin dərinləşməsinə böyük əhəmiyyət verir”

Sentyabrın 12-də Milli Məclisdə Avropa Şurası Parlament Assambleyasının (AŞ PA) prezidenti xanım Lilian Mori Paskie ilə görüşlər keçirilib.

AZƏRTAC xəbər verir ki, Milli Məclisin AŞ PA-dakı nümayəndə heyətinin üzvləri ilə keçirilən görüşdə parlamentin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri, AŞ PA-dakı nümayəndə heyətimizin rəhbəri Səməd Seyidov qonağı salamlayaraq onunla qurumun tədbirlərində olan görüşləri məmnunluqla xatırladıb. Avropa Şurasının 70 illiyi ərəfəsində Milli Məclisdə təşkil olunmuş bu görüşün əhəmiyyətli olduğunu söyləyib. O, Lilian Mori Paskienin dünən Fransa-Azərbaycan Universitetində keçirilmiş konfransdakı çıxışı zamanı söylədiyi fikirlərin əlaqələrimizin genişləndirilməsinə və dialoqun yüksək səviyyədə olmasına dəlalət etdiyini bildirib. Qonağın səsləndirdiyi “biz yalnız qarşılıqlı anlaşma, qarşılıqlı hörmət çərçivəsində əməkdaşlığımızı möhkəmləndirə bilərik” fikrinə razılığını ifadə edib.

Bildirilib ki, Azərbaycan AŞ PA ilə əlaqələrin inkişafına böyük önəm verir. Milli Məclis bu qurumla qarşılıqlı faydalı əməkdaşlığın dərinləşməsində maraqlıdır. Belə səfərlər və keçirilən görüşlər münasibətlərimizin inkişaf etdirilməsində böyük əhəmiyyət kəsb edir. Qeyd olunub ki, AŞ PA-da təmsil olunan nümayəndə heyətimizin üzvləri təşkilatın işində fəal iştirak ediblər. Deputatlarımız qurumun bütün tədbirlərinə qatılır, qaldırılan məsələlər barədə öz mövqelərini bildirirlər.

Azərbaycanın ən ağrılı problemi olan Dağlıq Qarabağ münaqişəsi barədə söhbət açan Səməd Seyidov problemin həlli istiqamətində AŞ PA çərçivəsində atılan addımlardan danışıb. Komitə sədri diqqətə çatdırıb ki, məhz AŞ PA-nın 2005-ci ildə qəbul etdiyi müvafiq qətnamədə Azərbaycan torpaqlarının işğal edilməsi faktı xüsusi olaraq vurğulanıb. Məhz AŞ PA Azərbaycan və Ermənistan arasında dialoqun aparılması üçün xeyli səy göstərib.

AŞ PA prezidenti xanım Lilian Mori Paskie ölkəmizə səfərindən və keçirdiyi görüşlərdən məmnunluğunu ifadə edib. Rəhbərlik etdiyi qurumun Azərbaycanla əlaqələrin dərinləşməsinə böyük əhəmiyyət verdiyini bildirərək qeyd edib ki, biz AŞ PA olaraq milli parlamentlərlə əməkdaşlıq şəraitində konkret məsələlərin həllinə nail oluruq. Məhz dialoq yolu ilə həlli çətin olan məsələləri həll edirik. O, Azərbaycanın AŞ PA-dakı nümayəndə heyətinin fəaliyyətindən razı olduğunu bildirib.

Lilian Mori Paskie Avropa Şurasının 70 illik yubileyi ərəfəsində keçirilən görüşlərin siyasi əhəmiyyət kəsb etdiyini nəzərə çatdırıb. O, “mənim parlamentimdə zorakılığa qarşı yox” çağırışının müəllifi olaraq milli parlamentləri bu aksiyaya qoşulmağa səsləyib. Qadın və uşaqlara qarşı zorakılıqla mübarizəyə həsr olunmuş İstanbul və Lanzarote konvensiyalarının önəmi barədə danışıb.

Söhbət zamanı tərəfləri maraqlandıran məsələlər ətrafında geniş fikir mübadiləsi aparılıb.

Görüşdə AŞ PA-dakı nümayəndə heyətimizin üzvləri - komitə sədri Rafael Hüseynov, deputatlar Sevinc Fətəliyeva, Qənirə Paşayeva, Ülviyyə Ağayeva, Asim Mollazadə, Elşad Həsənov iştirak ediblər.

* * *

Həmin gün Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Aqiyə Naxçıvanlı Avropa Şurası Parlament Assambleyasının prezidenti xanım Lilian Mori Paskie ilə görüşüb.

Komitə sədri görüşdən məmnunluğunu ifadə edib. Bildirilib ki, Azərbaycan Avropa Şurası və onun Parlament Assambleyası ilə hərtərəfli əlaqələrin inkişafına böyük önəm verir. Ümid edirik ki, Sizin AŞ PA-nın prezidenti kimi Azərbaycana səfəriniz, keçirdiyiniz görüşlər ölkəmizlə qurum arasında münasibətlərin daha da inkişaf etməsinə təkan verəcək. Ölkəmizdə Avropa Şurası qarşısında götürdüyümüz öhdəlikləri yerinə yetirmək üçün lazım olan addımlar atılır.

Diqqətə çatdırılıb ki, Milli Məclisdə təmsil olunan 125 deputatdan 21-i qadındır. Parlamentdə müxtəlif sahələr üzrə komitələr fəaliyyət göstərir. Onlardan biri də Ailə, qadın və uşaq məsələləri komitəsidir. Komitədə ailə münasibətlərinin tənzimlənməsi, qadın və uşaq hüquqlarının müdafiəsi, gender bərabərliyinin təmin edilməsi, məişət zorakılığının aradan qaldırılması ilə bağlı qanun layihələri hazırlanır. Hazırda bu məsələlərlə bağlı mükəmməl qanunvericilik bazası mövcuddur. Eyni zamanda, biz bu sahələrə həsr olunmuş beynəlxalq konvensiyalara da qoşuluruq. Ümumiyyətlə, ölkəmizdə ailə dəyərlərinə, qadın və uşaqların hüquqlarının qorunmasına xüsusi önəm verilir.

Aqiyə Naxçıvanlı Avropa Şurasının 2014-cü il avqustun 1-də qüvvəyə minmiş qadınlara qarşı zorakılıq, məişət zorakılığı və bu halların aradan qaldırılmasına həsr olunmuş İstanbul Konvensiyası barədə söhbət açıb. Bildirilib ki, burada qadınlara qarşı zorakılıq insan haqlarının pozulması və ayrı-seçkiliyin bir forması kimi tanınır. İstanbul Konvensiyası bir çox baxımdan islahat xarakterli sənəddir.

AŞ PA prezidenti xanım Lilian Mori Paskie gender bərabərliyinin təmin edilməsinin vacibliyi barədə danışıb. Qeyd edilib ki, bu məsələyə həyatın bütün sahələrində xüsusi diqqət yetirilməlidir. Bütün zorakılıqların səbəbi bərabərliyin olmamasıdır. Qonaq zorakılıqla bağlı bir sıra statistik rəqəmlər səsləndirib. Qadın və kişilər arasında fərqin təhsil vasitəsilə aradan qaldırılmasının önəmli olduğunu deyib. İstanbul Konvensiyası ilə əlaqədar diqqətə çatdırılıb ki, Avropanın 34 ölkəsi artıq bu sənədə qoşulub. Avropa Şurasına və AŞ PA-ya üzv ölkələrin bu konvensiyaya qoşulması üçün təşkilat öz tərəfindən hər cür yardım göstərməyə hazırdır.

Görüşdə deputat Dilarə Cəbrayılova iştirak edib.

* * *

Həmin gün Milli Məclisin İntizam Komissiyasının üzvləri də ölkəmizdə səfərdə olan AŞ PA prezidenti xanım Lilian Mori Paskieni ilə görüşüblər.

İntizam Komissiyasının sədri Ağacan Abıyev qonağı salamlayaraq bu səfərin ikitərəfli münasibətlərin daha da inkişaf etməsinə təkan verəcəyinə inamını bildirib. O, rəhbərlik etdiyi komissiyanın fəaliyyəti barədə məlumat verərək, onun ayrı-ayrı strukturları ilə əməkdaşlığa böyük əhəmiyyət verdiklərini diqqətə çatdırıb.

Milli Məclisin Hüquq siyasəti və dövlət yuruculuğu komitəsinin sədri Əli Hüseynli qanun yaradıcılığı, ölkəmizdə aparılan hüquqi islahatlar, korrupsiyaya qarşı mübarizə və digər məsələlərlə bağlı məlumat verib. Qeyd edib ki, biz gələcəkdə də AŞ PA, o cümlədən bütün beynəlxalq təşkilatlarla əməkdaşlığın qenişləndirilməsində maraqlıyıq.

AŞ PA-nın prezidenti xanım Lilian Mori Paskie təmsil etdiyi qurumun ölkəmizlə əlaqələrindən danışıb və bu əlaqələrin daha da inkişaf etdirilməsinə böyük önəm verdiklərini söyləyib.

Bildirib ki, ikitərəfli münasibətlərin daha da möhkəmlənməsində və həyatın müxtəlif sahələrində müsbət nəticələrin əldə olunmasında milli parlamentlər xüsusi rol oynayır. Parlament seçkili orqandır və orada təmsil olunan deputatlar öz statusu çərçivəsində fəaliyyət göstərməlidir. Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

Görüşdə deputat Xanlar Fətiyev iştirak edib.

# Konstitusiya Məhkəməsi Palatasının növbəti iclası keçirilib

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Palatasının növbəti iclası keçirilib.

Konstitusiya Məhkəməsinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, iclasda Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin VI hissəsinə və “Konstitusiya Məhkəməsi haqqında” Qanunun 7.1-ci maddəsinə əsasən, Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 7-ci, 21-ci, 25-ci, 33-cü, 141-ci, 142-ci və 145-ci maddələrinin şərh edilməsinə dair Gəncə Apelyasiya Məhkəməsinin müraciətinə baxılaraq icraata qəbul olunması haqqında qərardad çıxarılıb.

Müraciətə mahiyyəti üzrə, tərəflərin iştirakı ilə Konstitusiya Məhkəməsi Plenumunun oktyabrın 2-nə təyin edilmiş iclasında baxılacaq.

## Yeni dərs ili qarşısında



# Dayanıqlı inkişafa xidmət edən müasir təhsil strategiyası

Əvvəli 1-ci səh.

Son illər ölkə vətəndaşlarının mədəni-intellektual potensialının yüksəldilməsi, təhsilin keyfiyyətcə dəyişərək yeni dövrün beynəlxalq tələblərinə uyğunlaşdırılması üçün dövlət səviyyəsində zəruri addımlar atılmış, dünyanın inkişaf etmiş ölkələrinin qabaqcıl təcrübəsinin tətbiqinə başlanılmışdır.

Müasir dünyada təhsilə, əhalinin savadlılıq məsələsinə yeni baxış formalaşır. İndi təhsillilik dedikdə təkcə yazı, oxu bacarığı deyil, eləcə də texniki biliklər və kompüter vərdişləri, səmərəli ünsiyyət, məlumatı anlama, şərhetmə və ötürmə, sosial bilgilər və bütün bunları praktik həyatda tətbiqetmə bacarıqları nəzərdə tutulur. Bu meyarlara cavab verməyən fərdlər öz funksiyalarını tam və səmərəli şəkildə yerinə yetirməkdə, tərəqqipərvər dünyanın insanlara bəxş etdiyi rifahdan faydalanmaqda müəyyən çətinliklərlə üzləşməli olurlar.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin son 16 ildə yürütdüyü fəal maarifçilik xətti də bu və digər strateji hədəflərin reallaşdırılmasına xidmət edir. Dövlət büdcəsi vəsaitlərinin ildən-ilə artması təhsil sahəsində məhz maliyyə çatışmazlığı səbəbindən uzun illərdən bəri yığılıb qalmış bir sıra problemlərin məhz hazırkı mərhələdə həlli məsələsini aktuallaşdırmış, dövlət investisiyalarının həcmcə artımını təmin etmiş, bu sahənin dünya standartları səviyyəsinə yüksəlməsinə geniş imkanlar açmışdır. Bu sahənin inkişafı ilə bağlı qəbul olunan mühüm strategiya və dövlət proqramları nəticəsində dövlət büdcəsindən təhsilə ayrılan xərclər əhəmiyyətli şəkildə artmış, 2003-cü ilə nisbətən təhsil xərcləri 9 dəfədən çox artaraq 2019-cu ildə 2.3 milyard manata çatdırılmışdır.

Dövlət başçısının təhsil sektoruna göstərdiyi diqqət və qayğı nəticəsində son illər Azərbaycan təhsili özünün sürətli modernləşmə, müasirləşmə mərhələsinə qədəm qoymuş, xüsusən də aparılan əsaslı kadr dəyişiklikləri, novatorluğu ilə fərqlənən yeni təşəbbüskar intellektual komandanın rəhbərliyə gətirilməsi islahatların çevikliyini və səmərəliliyini təmin etmişdir. Son illər təhsildə islahatların daha sistemli və ardıcıl şəkildə aparılması, dövlət başçısının və Azərbaycanın Birinci vitse-prezidentinin qarşıya qoyduğu tələblərin layiqincə gerçəkləşdirilməsi bunu əminliklə söyləməyə ciddi əsaslar verir.

Ümumilikdə son 16 ildə “Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə strategiya”ya müvafiq olaraq təhsilin bütün pillələrində maddi-texniki bazanın, tədris şəraitinin yaxşılaşdırılması, təhsilin məzmunca genişləndirilməsi bu sahədə informasiya-kommunikasiya texnologiyalarının, təhsil sistemində yeni maliyyələşmə mexanizminin tətbiqi diqqət mərkəzindədir. Həyata keçirilən tədbirlər sırasında ən vacib strateji istiqamət təhsilin məzmununun yeniləşdirilməsi; yeni proqram, dərslik və dərs vəsaitlərinin hazırlanması; təhsilin idarə olunmasının təkmilləşdirilməsi, ali təhsil müəssisələrinin maddi-texniki və tədris bazasının möhkəmləndirilməsi; tədrisdə müasir informasiya-kommunikasiya texnologiyalarından (İKT) istifadə olunması; şagirdlərin biliyinin daha müasir üsullarla qiymətləndirilməsi və beynəlxalq əlaqələrin genişləndirilməsi yolu ilə təhsilin keyfiyyətinin yüksəldilməsi prioritet istiqamətlər təşkil edir.

Bu istiqamətdə mühüm tədbirlərdən biri də ümumi təhsildə infrastrukturun yeniləşdirilməsi, müasir tələblərə cavab verən yeni məktəblərin inşasıdır. Dövlət başçısının ötən 16 ildə imzaladığı regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramları çərçivəsində ölkəmizdə yeni məktəblərin inşası prosesi genişlənmişdir. Azərbaycan Respublikası Prezidentinin diqqət və qayğısı, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsü ilə ümumi təhsil müəssisələrinin infrastrukturunun müasirləşdirilməsi istiqamətində əhəmiyyətli işlər görülmüş, son 5 ildə 600-dən çox, 2003-2018-ci illərdə isə 3200-dən çox məktəb binası tikilmiş və ya əsaslı şəkildə yenidən qurulmuşdur. İlk dəfə olaraq ucqar kəndlərdə modul tipli məktəblərin inşası təcrübəsi tətbiq edilmiş, 2017-2019-cu illərdə 243 belə məktəb şagirdlərin istifadəsinə verilmişdir. 2019-2020-ci təhsil ilində 3500 şagird yerlik daha 50 modul tipli məktəbin istifadəyə verilməsi təmin ediləcəkdir. Məktəb tikintisi sahəsində həyata keçirilən tədbirlər nəticəsində 1 milyondan çox şagirdin təlim şəraiti əhəmiyyətli şəkildə yaxşılaşdırılmışdır. 2017-ci ildə Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndində yeni məktəbin fəaliyyətə başlaması dövlət başçısının qətiyyətli və böyük dəstəyi ilə mümkün olmuş, bu tarixi hadisə özündə böyük qayıdışı simvolizə etmişdir.

Bu sahədə yerinə yetirilısi vəzifələr təkcə dövlət qurumlarına deyil, möhtərəm Prezidentin də qeyd etdiyi kimi, vətəndaş cəmiyyətinin bütün strukturlarına aid olmaqla təhsilin, savadlanmanın ümumilikdə sosial hərəkata çevrilməsini zəruri edir. Ulu Öndər Heydər Əliyevin ideyalarının təbliği məqsədilə yaranmış Heydər Əliyev Fondunun hər kəs üçün bərabər təhsil imkanlarının yaradılmasını, gənc nəslin zəruri biliklərə yiyələnməsini, milli təhsilimizin beynəlxalq təhsil sisteminə inteqrasiyasını əsas fəaliyyət meyarlarından biri kimi seçərək qeyd edilən ictimai məqsədlərin fəal təbliğatçı və təşkilatçısı missiyasını üzərinə götürməsi də bu zərurətə əsaslanır.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, UNESKO və ISESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın irəli sürdüyü “Yeniləşən Azərbaycana yeni məktəb” layihəsi çərçivəsində son 16 ildə respublikamızda 400-dək yeni məktəb binası tikilərək istifadəyə verilmişdir. Təmirə ehtiyacı olan internat tipli tədris müəssisələri müasir standartlar çərçivəsində yenidən qurulmuş, məktəblər müasir avadanlıq, istilik sistemi, zəngin kitabxana, əyani vəsait və kompüterlərlə təchiz olunmuşdur.

Bir sıra MDB ölkələrindən fərqli olaraq, hazırda Azərbaycanda həyata keçirilən sosial siyasətin tərkib hissəsi kimi orta ümumtəhsil məktəblərinin şagirdlərinin dərsliklərlə pulsuz təminatı məsələsi artıq öz həllini tapmışdır. Azərbaycan Respublikası Prezidentinin “2003-2005-ci illər üçün Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və iqtisadi inkişaf üzrə Dövlət Proqramı”na uyğun olaraq 2003-2005-ci illər ərzində ümumtəhsil məktəblərinin I-XI sinif şagirdlərinin dərsliklərlə pulsuz təminatı yerinə yetirilmişdir. Beləliklə, Azərbaycan müstəqillik əldə etdikdən sonra postsovet məkanında orta məktəb şagirdlərinin dövlət vəsaiti hesabına dərsliklərlə pulsuz təminatını reallaşdıran ilk ölkə olmuşdur. Dərslik siyasəti reallaşdırılarkən bu da nəzərə alınır ki, milli kurikulumla müəyyənləşdirilən əsas məqsəd “yaddaş məktəbi”ndən “təfəkkür”, düşüncə məktəbi”nə keçmək, bu əsasda təhsilin müasir modelini yaratmaqdan ibarət olmalıdır.

Müəllim peşəsinin cəmiyyətdə nüfuzunun yüksəldilməsi, onun sosial vəziyyətinin yaxşılaşdırılması da həyata keçirilən islahatların əsas qayəsini təşkil edir. Ölkə rəhbərinin 4 noyabr 2004-cü il tarixli sərəncamı ilə təsdiqlənmiş “2005-2009-cu illər üçün Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri şəbəkəsində pedaqoji kadr təminatı üzrə İnkişaf Proqramı” da bu istiqamətdə yeni imkanlar açmışdır. Stimullaşdırıcı tədbirlər nəticəsində 2005-2016-cı illərdə ümumilikdə 10 min nəfərdən artıq müəllim stimullaşdırıcı tədbirlər tətbiq edilməklə ölkənin ucqar kənd məktəblərinə göndərilmişdir.

Təhsilin inkişafı üzrə dövlət strategiyasına müvafiq olaraq müəllimlərin fəaliyyətinin stimullaşdırılması sahəsində aparılan işlər son illər sürətlə davam etdirilir. Respublikanın əksər şəhər və rayonlarında müəllimlərin bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi təşkil edilmiş, ölkə üzrə bütün müəllimlərin diaqnostik qiymətləndirilməsi prosesi başa çatmışdır. Bunun nəticəsi kimi ölkə rəhbərinin müvafiq sərəncamları əsasında müəllimlərin tədris yükünün 1,5 dəfə, əməkhaqlarının iki dəfə artırılması ümumən tədrisin keyfiyyətinin yüksəlməsinə, bu sahədə işləmək istəyənlərin sayının durmadan artmasına müsbət təsirini göstərmişdir.

Son 16 ildə qazanılmış mühüm uğurlardan biri də peşə təhsilinin nüfuzunun yüksəldilməsidir. Ölkəmizin son illərdəki dinamik inkişafı, yeniləşən texnologiya və elmi-texniki tərəqqi prosesi nəticəsində yeni peşə və ixtisasların yaranması peşə-ixtisas təhsilinin əhəmiyyətini daha da artırır. Açıq demək lazımdır ki, müstəqilliyin ilk illərində Azərbaycanda peşə təhsilinin nüfuzu aşağı düşmüş, peşə təhsili verən tədris müəssisələrinin maddi-texniki bazası ciddi surətdə zəifləmişdi. Bu zərurətdən irəli gələrək Prezident İlham Əliyev tərəfindən “Azərbaycan Respublikasında texniki peşə təhsilinin inkişafı üzrə Dövlət Proqramı (2007-2012-ci illər)” qəbul edilmişdi. Bundan əlavə, dövlət başçısının xüsusi diqqət və qayğısı ilə Azərbaycan Respublikasının Təhsil Nazirliyi yanında Peşə Təhsili üzrə Dövlət Agentliyinin təsis edilməsi peşə təhsilinin inkişaf etdirilməsi və müasir dövrün standartlarına uyğunlaşdırılması baxımından böyük əhəmiyyət kəsb edir.

Bu sahədə həyata keçirilən dövlət siyasətinin səmərəliliyinin daha da yüksəldilməsi istiqamətində atılan mühüm addımlardan biri də “Peşə təhsili haqqında” qanunun qəbul olunmasıdır. Mütərəqqi beynəlxalq təcrübə əsasında hazırlanan bu sənəd ölkədə peşə hazırlığının səmərəliliyinin artırılması sahəsində dövlət siyasətinin prinsiplərini, peşə təhsili və təlimi sisteminin təşkilati-hüquqi, iqtisadi əsaslarını müəyyən edir.

Bu istiqamətdə islahatların gələcək strategiyası dövlət başçısının təsdiq etdiyi peşə təhsilinin inkişafı üzrə Strateji Yol Xəritəsində müəyyənləşdirilmişdir.

Ölkəmizdə son illər həyata keçirilən islahatlar sırasında şagirdlərin biliyinin qiymətləndirilməsinin yeni innovativ üsullarının tətbiqi xüsusilə mühüm əhəmiyyət kəsb edir. İmtahanların uzun illər əvvəlki qaydalarla aparılması, heç bir təkmilləşdirmənin olmaması cəmiyyətdə birmənalı qəbul edilmirdi. Test üsulu ilə ali məktəblərə hazırlaşan abituriyentlərin yazı və şifahi nitq vərdişlərinin, özünüifadə bacarıqlarının zəif inkişafı, onların əzbərçiliyə meyillənməsi, verilən sualları bəzən xüsusi biliklər hesabına deyil, sadəcə məntiqi yanaşma ilə - təsadüfən düzgün qiymətləndirməsi problem məsələlər kimi daim vurğulanırdı. Mütəxəssislər yaxşı bilirlər ki, uzun müddət test üsuluna alışan şagird və ya tələbə düzgün cavabı variantlar arasından düz olmayanları çıxararaq - məntiqlə tapır. Bu baxımdan şəffaflıq və obyektivliyə təminat yaradan test üsulunun özünün də ölkənin inkişaf tempinə və müasir təhsil meyarlarına uyğun şəkildə təkmilləşdirilməsi ciddi sosial tələbat kimi meydana çıxmışdı.

Ali məktəblərə qəbulun 2019-cu ildən iki mərhələdə həyata keçirilməsi, qəbul zamanı orta məktəblərin buraxılış imtahanlarının nəticələrinin də nəzərə alınması bu baxımdan mühüm yenilik kimi qeyd olunmalıdır. Təhsil Nazirliyinin və Dövlət İmtahan Mərkəzinin tətbiq etdikləri bu yenilik ümumən orta məktəblərin özündə təhsilin səviyyəsinin yüksəlməsinə, dərsdən yayınmaların azalmasına, repetitorluq kimi ziyanlı meyillərin azalmasına xidmət edir. Məhz bu səbəbdən də artıq tam orta təhsili başa vuran məzunlar buraxılış imtahanlarını yeni formatda vermiş, tətbiq olunan üsulun səmərəliliyi bir daha təsdiqini tapmışdır. Belə ki, ali təhsil müəssisələrinə qəbul zamanı buraxılış imtahanlarının nəticələri də ciddiliklə nəzərə alınmışdır.

Təhsil Nazirliyinin də bəyan etdiyi kimi, imtahanların formatında dəyişikliklərin edilməsində əsas məqsəd ölkə iqtisadiyyatının inkişafı üçün zəruri olan bacarıqların ölçülməsi və təkmilləşdirilməsidir. Bu gün əmək bazarı tərəfindən daha çox tələb olunan yazı, riyazi təfəkkür, yaradıcılıq, problem həlletmə kimi vərdişlər yeni formatda keçirilən buraxılış imtahanlarında ölçüləcək bacarıqlar siyahısına daxil edilmişdir. Yeni modelin mahiyyəti bundan ibarətdir ki, abituriyentin balı buraxılış imtahanı və qəbul imtahanında topladığı balların cəmi olaraq hesablanır. Belə ki, I mərhələdə (buraxılış imtahanında) abituriyentlər 3 fəndən (ana dili, riyaziyyat, xarici dil) maksimum 300 bal, II mərhələdə (qəbul imtahanında) isə 3 fəndən (ixtisas qruplarına uyğun) maksimum 400 bal olmaqla cəmi 700 bal toplaya bilərlər. Yeni modelə əsasən ali təhsil müəssisələrinə qəbul olunmaq istəyən məzunlar daha az sayda fəndən imtahan vermiş və verdikləri hər bir imtahanın onların həyatına təsiri olmuşdur. Əvvəlki illərdə məzunlar eyni fəndən 2 dəfə imtahan verməli olsalar da, bu imtahanlardan yalnız qəbul imtahanı məzunun gələcək həyatına təsir edirdi. Əvvəlki illərdə olduğu kimi, imtahanlar Dövlət İmtahan Mərkəzi tərəfindən keçirilmişdir.

Ali təhsil müəssisələrinə qəbul imtahanlarının ikinci mərhələsi təhsil müəssisələrinə qəbul aparılan ixtisas qrupları üzrə həyata keçirilir, bir il qüvvədə olur və yalnız cari tədris ilində abituriyentə ali təhsil müəssisələrinə keçirilən tələbə qəbulu müsabiqəsində iştirak etmək hüququ verir. Qəbul imtahanları hər tədris ilində iki dəfə - yaz və yay sessiyaları şəklində keçirilir. Abituriyent hər sessiyada istədiyi ixtisas qrupu üzrə yalnız bir imtahanda iştirak edə bilər. Ali təhsil müəssisələrinə qəbul aparılan ixtisaslar, həmin ixtisaslar üzrə ali təhsilin dövlət standartları - bakalavr hazırlığının məzmununa və səviyyəsinə qoyulan məcburi minimum tələblər, bu ixtisaslara yiyələnmək üçün tələb olunan bilik, bacarıq və vərdişlər nəzərə alınmaqla beş qrupa bölünür. Beləliklə, ikimərhələli qiymətləndirməyə görə ballar toplanır və bu üsul abituriyentlərin biliklərinin daha obyektiv qiymətləndirilməsinə, onlarda yazı, şifahi nitq, müstəqil düşünmə, təhlil qabiliyyətinin inkişafına kömək edir.

*Göründüyü kimi, son illər Azərbaycanın müstəqil, milli ənənələrə və ümumbəşəri dəyərlərə, dünya təhsil standartlarına cavab verən müasir təhsil sisteminin formalaşdırılması üçün kifayət qədər böyük layihələr həyata keçirilmişdir. Azərbaycan təhsili məhz bu ənənələr əsasında inkişaf edir, mövcud problemlərə, çətinliklərə sinə gərərək millətin parlaq gələcəyinə yol açmağa çalışır. Təhsil ictimaiyyəti ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında ölkənin bütün sahələrində, o cümlədən təhsil, elm sahəsində mövcud problemlərin tezliklə öz həllini tapacağına ürəkdən inanır.*

***Mönsüm ALIŞOV,***
***“İdrak” liseyinin təsisçisi,***
***pedaqoji elmlər doktoru,***
***professor***

## Heydər Əliyev Fondundan 17 min aztəminatlı və kimsəsiz uşağa hədiyyə



Heydər Əliyev Fondu 17 min aztəminatlı ailənin övladına, uşaq evləri və internat məktəblərində məskunlaşan şəxslərə məktəb ləvazimatları hədiyyə edir. Hədiyyələr bu il birinci sinfə gedən şagirdlərə verilir.

AZƏRTAC xəbər verir ki, fondun sifarişi ilə Bakı və müxtəlif regionlardan olan uşaqlar üçün hazırlanan bu hədiyyə dəstləri çanta və müxtəlif məktəb ləvazimatlarından ibarətdir.

Hədiyyələr sentyabrın 15-dək bölgələr üzrə bütün ünvanlara çatdırılacaq.

## Bakıda Azərbaycan-Rusiya biznes forumu keçirilib





Sentyabrın 12-də Rusiyanın Sverdlovsk vilayəti nümayəndə heyətinin ölkəmizə səfəri çərçivəsində İqtisadiyyat Nazirliyinin dəstəyi, Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun (AZPROMO) təşkilatçılığı ilə Azərbaycan-Rusiya biznes forumu keçirilib.

Tədbirdə rəsmi şəxslərlə yanaşı, hər iki tərəfdən sənaye, nəqliyyat-logistika, kənd təsərrüfatı, tikinti, təhsil, səhiyyə, informasiya-kommunikasiya texnologiyaları və sair sahələrdə fəaliyyət göstərən 120-dən çox iş adamı iştirak edib.

AZƏRTAC xəbər verir ki, İqtisadiyyat nazirinin müavini Rüfət Məmmədov Azərbaycan-Rusiya əlaqələrinin uğurla inkişaf etdiyini, dövlət başçılarının ölkələrimiz arasında siyasi-iqtisadi əlaqələrin inkişafına böyük önəm verdiyini vurğulayıb. Qeyd edib ki, Rusiya Azərbaycanın əsas ticarət tərəfdaşlarından biridir. Rusiyanın Cənubi Qafqaz ölkələri ilə ticarət əlaqələrinin təxminən yarısı Azərbaycanın payına düşür. Rusiya qeyri-neft məhsullarımızın ixracı üzrə ilk yerdədir. Azərbaycanda 700-dək Rusiya kapitallı şirkət fəaliyyət göstərir. Ölkələrimiz arasında uğurlu investisiya əməkdaşlığı həyata keçirilir. Rusiya şirkətləri Azərbaycan iqtisadiyyatına 4,7 milyard ABŞ dolları sərmayə yatırıb. Azərbaycanın Rusiya iqtisadiyyatına investisiyası 1,2 milyard dollar təşkil edir.

Nazir müavini deyib ki, iqtisadi əlaqələrin inkişafında Rusiyanın federal subyektləri, o cümlədən Sverdlovsk vilayəti ilə əməkdaşlıq önəmlidir. Sentyabrın 11-də Sverdlovsk vilayəti ilə Azərbaycan arasında imzalanan sənədlər müxtəlif sahələri əhatə edir. Bu, bir daha əlaqələrimizin çoxşaxəli olduğunu göstəirir: "Ölkələrimiz arasında iqtisadi-ticarət əlaqələrinin daha da genişləndirilməsi potensialı böyükdür və bu məqsədlə tədbirlər davam etdirilir. Azərbaycan məhsulları "Made in Azerbaijan" vahid stendi ilə Rusiyada keçirilən "Worldfood", "Prodexpo", "MosBuild", "Innoprom" sərgilərində nümayiş olunur, Rusiyaya ixrac missiyaları təşkil edilir, regionlararası forumlar keçirilir".

Sverdlovsk vilayətinin Beynəlxalq Münasibətlər və Xarici İqtisadiyyat naziri Vasiliy Kozlov Azərbaycan-Rusiya iqtisadi əlaqələrinin, o cümlədən Sverdlovsk vilayəti ilə əməkdaşlığın uğurlu inkişafını vurğulayıb. Diqqətə çatdırıb ki, gələn il Sverdlovsk vilayətinin sahibkarlarının Azərbaycana səfərinin təşkil edilməsi planlaşdırılır.

Biznes forumda Azərbaycanın biznes mühiti və investisiya imkanları, sənaye parkları barədə təqdimatlar edilib, Sverdlovsk vilayətinin iqtisadi potensialı barədə videoçarx nümayiş olunub.

Həmçinin biznes forum çərçivəsində Azərbaycan Şərab İstehsalçıları və İxracatçıları Assosiasiyası ilə Sverdlovsk vilayətinin "VINAZ" MMC, həmçinin Azərbaycanda Meyvə və Tərəvəz İstehsalçıları və İxracatçıları Assosiasiyası və Sverdlovsk vilayətinin "TEN" şirkətlər qrupu arasında əməkdaşlığa dair memorandumlar imzalanıb.

Sonra iş adamları əlaqələrin genişləndirilməsini, yeni əməkdaşlıq imkanlarını müzakirə ediblər.

## Prezident Administrasiyasının məsul işçiləri bölgələrdə vətəndaşların müraciətlərini dinləyiblər

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının məsul işçiləri şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq sentyabrın 12-də Quba, Cəlilabad, Qəbələ, Beyləqan və Cəbrayıl rayonlarının sakinləri ilə görüşüblər.

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyevin tapşırığına əsasən keçirilən görüşlərdə sakinlərin qaldırdıqları məsələlər diqqətlə dinlənilib, bütün məsələlərin qanunvericiliyə uyğun həlli istiqamətində tapşırıqlar verilib. Bəzi müraciətlər yerindəcə həll edilib. Araşdırılma tələb edən müraciətlər nəzarətə götürülüb və onların həlli istiqamətində aidiyyəti üzrə göstərişlər verilib.

Görüşlərdə qeyd olunub ki, Prezident İlham Əliyevin regionların sosial-iqtisadi inkişafına göstərdiyi diqqət və qayğı nəticəsində respublikamızda müasir infrastruktur, istehsal və emal müəssisələri yaradılır, yeni iş yerləri açılır. İlk növbədə, əhalinin sosial rifah halının daha da yaxşılaşdırılmasına yönəlmiş bu tədbirlər bir daha təsdiqləyir ki, dövlət başçısının həyata keçirdiyi siyasətin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Son vaxtlar sosial-iqtisadi sahədə aparılan əsaslı islahatlar Prezident İlham Əliyevin əhalinin sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində reallaşdırılan tədbirlərin davamıdır.

Diqqətə çatdırılıb ki, Azərbaycanda sosial-iqtisadi sahədə inqilabi islahatlar həyata keçirilməkdədir. Bu islahatlar, ilk növbədə, əhalinin rifah halının yaxşılaşdırılmasına, vətəndaş məmnunluğuna yönəlib. Prezident İlham Əliyev hələ 2018-ci ilin sonlarında bəyan etmişdi ki, qarşıdakı dövrdə əhalinin sosial durumunun daha da yaxşılaşdırılması prioritet olacaq. Bu məqsədlə 2019-cu ilin əvvəlində dövlət başçısı iki böyük sosial islahat paketini təsdiqlədi. Birinci paketdə 3 milyon vətəndaşın maaş, pensiya, sosial müavinətlərinin artırılmasına, mühüm sosial məsələlərin həllinə 1,6 milyard manat yönəldildi və icra olundu. İkinci paketin icrası ilə bağlı hazırlıq işləri də tamamlanıb və sentyabrın 1-dən minimum əməkhaqqı 250 manata çatdırılıb, əlavə olaraq 400 min nəfərin maaşı 20-50 faiz artırılıb. Oktyabrın 1-dən isə pensiyaların artımı 750 min nəfərə şamil olunacaq. Hər iki paketin ümumi məbləği cari il üçün 2,3 milyard manat, gələn il üçün isə daha 3 milyard manat təşkil edir. Bu iki sosial islahat paketi ümumilikdə 4,2 milyon vətəndaşı əhatə edəcək. Minimum pensiya 72 faiz artırılıb. Beləliklə, ölkəmiz minimal pensiya üzrə alıcılıq qabiliyyətinə görə MDB-də birinci olacaq. Minimum əməkhaqqının 250 manata çatdırılmasından sonra Azərbaycan bu göstərici üzrə MDB-də ikinci sırada qərarlaşıb.

Bundan başqa, müavinətlərin və təqaüdlərin artırılması 300 min əlilliyi olan şəxsi, 500 min məcburi köçkünü, 100 mindən çox tələbəni, ümumilikdə 1,3 milyon insanı əhatə edir. Ən əsası, bu addımlar aztəminatlı təbəqəni əhatə etməklə yanaşı, həmin kateqoriyaya aid olan insanların sosial durumunu əhəmiyyətli dərəcədə yaxşılaşdıracaq.

Azərbaycan Prezidentinin digər təşəbbüsü sosial sığorta sahəsində inqilabi irəliləyişi təmin edib. Belə ki, 2006-2018-ci illərdə sığortaya hətta cüzi məbləğ ödəyənlərə belə 25 illik sığorta stajı hesablanıb. Bunun nəticəsində yanvarın 1-dən heç bir bürokratik əngəl olmadan 13 min nəfərə pensiya təyin olunub. İl ərzində pensiyaya çıxan vətəndaşların 80 faizi də bundan yararlana biləcək.

Keçirilən görüşlərdə, həmçinin məmur-vətəndaş münasibətlərinin sağlam zəmində qurulmasının, insanlara layiqli xidmət göstərilməsinin, etik davranış qaydalarına əməl olunmasının vacibliyi vurğulanıb.

Sakinlər bölgələrdə vətəndaşların qəbulu və müraciətlərinə baxılması üçün yaradılan rahat və əlverişli şəraitdən razılıqlarını ifadə edib, göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.

## XİN: "Fransa deputatlarının Azərbaycanın işğal olunmuş Dağlıq Qarabağ bölgəsinə qanunsuz səfərini qəti şəkildə pisləyirik"

Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsi fransız deputatların Azərbaycanın işğal olunmuş Dağlıq Qarabağ bölgəsinə səfəri ilə bağlı məsələni şərh edib.

AZƏRTAC xəbər verir ki, bununla bağlı verilən açıqlamada deyilir: "Fransa parlamentarilərinin Azərbaycanın işğal olunmuş Dağlıq Qarabağ bölgəsinə qanunsuz səfərini qəti şəkildə pisləyirik.

Yerli azərbaycanlı əhalinin qanlı etnik təmizlənməsini həyata keçirən və münaqişənin həlli çərçivəsində məcburi köçkünlərin əzəli yaşayış yerlərinə qayıtmalarının qarşısını almaq üçün əlindən gələni edən Ermənistan tərəfindən ölkəmizin işğal olunmuş ərazilərinə bu qanunsuz səfərin həyata keçirilməsi Fransa parlamenti üzvlərinin rəhbər tutmalı olduqları "azadlıq, bərabərlik, qardaşlıq" yüksək ideallarına və fundamental insan hüquqlarına tamamilə ziddir.

Qeyd etmək lazımdır ki, bu addım qərəzli, Fransanın erməni lobbisinin təsiri altında olan və əvvəlki qanunsuz səfərləri səbəbindən adı artıq Azərbaycana girişi arzuolunmaz şəxslər siyahısında yer alan Gi Tesye (Guy Teissier) kimi deputatlar tərəfindən atılıb. Ona qoşulan qanunsuz səfərin digər iştirakçılarının, deputatlar Valeri Buaye (Valerie Boyer), Jan-Pyer Cübertafon (Jean-Pierre Cubertafon), Məhəmməd Laqhila (Mohamad Laqhila), Daniel Kazaryan (Daniele Cazarian), Giyom Kasparyan (Guillaume Casbarian) və senator Pyer Uzuliasın (Pierre Ouzoulias) da adları müvafiq olaraq həmin siyahıya salınacaqdır.

Bununla əlaqədar Fransanın ölkəmizdəki müvəqqəti işlər vəkili Azərbaycan Xarici İşlər Nazirliyinə çağırılıb və ona Fransa tərəfinə ünvanlanan etiraz notası təqdim edilib. Sənəddə bu cür qanunsuz səfərlərin həyata keçirilməsinin ATƏT-in Minsk qrupu həmsədrlərinin, o cümlədən Fransanın Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin danışıqlar yolu ilə həll olunması məqsədini güdən səylərini ciddi şəkildə sarsıtdığına, eyni zamanda, bu prosesdə vasitəçi qismində Fransanın nüfuzuna xələl gətirdiyinə xüsusi diqqət çəkilir.

Fransa hökumətini bir daha bu ölkənin parlamentarilərinin Azərbaycan ərazilərinin işğalı nəticəsində yaranmış status-kvonun möhkəmləndirilməsinə yönəlmiş qanunsuz səfərlərinin qarşısını almaq üçün qətiyyətli tədbirlər görməyə və bununla da, öz beynəlxalq öhdəliklərinin düzgün yerinə yetirilməsi maraqlarını rəhbər tutaraq, nizamlamada vasitəçi kimi qərəzsiz yanaşmasının ardıcıllığını təsdiq etməyə çağırırıq".

## ADA Universitetinin müəllim və tələbələri şərəf andı içiblər



Sentyabrın 12-də ADA Universitetinin müəllim və tələbələri şərəf andı içiblər. AZƏRTAC xəbər verir ki, bu münasibətlə keçirilən mərasim Azərbaycan Respublikasının Dövlət himninin səsləndirilməsi ilə başlanıb. Tədbir ADA Universitetinin 45 ölkədən ibarət beynəlmiləl ailəsinin bayraq paradı ilə davam edib.

Tədbirdə Şərəf Məcəlləsini bu tədris ilində universitetə yeni qəbul edilmiş 695 yerli və xarici bakalavr və magistr tələbələri və müəllim heyətinin 49 yeni üzvü imzalayıb. Mərasim ADA-nın qısa tarixində daha bir ilklə yadda qalıb - bu ildən fəaliyyət göstərən ADA Məktəbinə ilk qəbul edilən 253 yuxarı sinif şagirdi də tədris zamanı akademik əxlaq və dürüstlük prinsiplərinə sadiq qalacaqlarına and içiblər.

Mərasimdə giriş sözü ilə çıxış edən ADA Universitetinin tədris işləri üzrə prorektoru Vəfa Kazdal bildirib ki, şərəf andının içilməsi hər yeni tədris ilinin əvvəlində keçirilən ənənəvi mərasimdir. Şərəf Məcəlləsi beş akademik əxlaq və dürüstlük prinsipindən ibarətdir: "Yalan danışma! Aldatma! Plagiatlıq etmə! Ayrı-seçkilik salma! Bu prinsipləri pozmaqda başqalarına yardım etmə!" ADA Universitetinin fəlsəfəsi akademik əxlaq və dürüstlüyün sanksiya, qadağa və hədələrin tətbiqi ilə deyil, bu dəyərləri yüksək tutan akademik mədəniyyətin aşılanmasına arxalanır.

İnformasiya texnologiyaları və mühəndislik fakültəsinin dekanı Araz Yusubov bildirib ki, şərəf andı hamımızın həyatında vacib bir qərar, yeni bir mərhələnin başlanğıcı olub. ADA Universiteti yüksək dəyərlər və hədəflər üzərində qurulmuş bir təhsil müəssisəsidir. Universitet qısa müddətdə ölkə təhsil sistemində yeniliklərə imza atıb, müəllim adına inamı, hörməti yüksəldib.

Azərbaycan Milli Paralimpiya Komitəsinin vitse-prezidenti İlham Zəkiyev tələbələrə və müəllim heyətinə müvəffəqiyyətlər arzulayıb. O, ADA Universitetində yüksək səviyyədə təhsil sistemi qurulduğunu və bu ali təhsil ocağında ixtisaslı kadrlar hazırlandığını diqqətə çatdırıb.

Tədbirdə ADA Universitetinin rektoru, səfir Hafiz Paşayev qısa müddətdə əldə edilən nailiyyətlərdən, təhsil ocağındakı sürətli inkişafdan söz açıb, uğurların davamlı olacağını bildirib. Rektor deyib: "Bu il 700-dək tələbə universitetimizə qəbul olunub. Bu rekord rəqəmdir, amma gələcəkdə onların sayı daha da artmalıdır. Tələbələrin yarısı güzəştli şərtlərlə oxuyur. ADA-nın fəaliyyətinin mərkəzində tələbə dayanır. Tələbə bu dünyanı müəyyənləşdirən gələcəkdir. Təcrübə onu göstərir ki, şərəf andına inanan, riayət edən tələbə və müəllimlər bu universitetin gələcəyini düşünənlərdir və inanıram ki, siz də bu işdə bizə kömək edəcəksiniz".

Rektor universitetə qəbul olunan yerli və xarici tələbələri, o cümlədən müəllimləri yeni dərs ili münasibətilə təbrik edib, müvəffəqiyyətlər arzulayıb.

Sonra ADA Universitetinin himni səsləndirilib.

Tədbir konsert proqramı ilə davam edib.

## *Rəqəmsal iqtisadiyyat quruculuğu:*

## Azərbaycan üçün açılan imkanlar

Rəqəmsal texnologiyaların inkişafı bəşəriyyət qarşısında tərəqqi üçün yeni üfüqlər açır. Hazırda dünya "SƏNAYE 4.0" - Dördüncü Sənaye İnqilabına qədəm qoyur. Bu, istehsalın avtomatlaşdırılması, robotlaşma, süni intellektdən geniş istifadə, iqtisadiyyatın bütün sahələrində rəqəmsal texnologiyaların tətbiqi deməkdir. "SƏNAYE 4.0" rəqəmsallaşma, texnoloji infrastruktur quruculuğu ilə sıx bağlı olaraq ən fərqli sahələrdə yeniliklərin tətbiqinə və inkişafa gətirib çıxarır.

Hazırda dünya ölkələri yeni inkişaf mühitinə qədəm qoyaraq rəqəmsallaşma istiqamətində yeni təşəbbüslər irəli sürürlər. Belə bir dövrdə rəqəmsal texnologiyaların tətbiqi, xüsusilə də iqtisadiyyatın rəqəmsallaşması və rəqəmsal iqtisadiyyatın qurulması ən çox müzakirə olunan məsələlərdəndir.

Texnoloji tərəqqi dünya üzrə müxtəlif regionlarda fərqli səviyyədə olduğundan dövlətlər də rəqəmsallaşma üzrə fərqli inkişaf səviyyəsinə sahibdirlər və ümumilikdə bir neçə qrupa bölünürlər. Belə ki, ölkələr rəqəmsallaşma üzrə liderlər, əsas qrup, geri qalanlar, yeni başlayan liderlər və rəqəmsallaşmada ötmə səviyyəsində olan dövlətlər kimi təsnif olunur. Əgər Cənubi Koreya, Danimarka, Böyük Britaniya, İsveçrə və Çin kimi dövlətlər liderlər kateqoriyasına, Almaniya, ABŞ, Yaponiya, Hindistan, Avropa İttifaqı ölkələri əsas qrupa daxildirlərsə, digər dövlətlər müvafiq olaraq geri qalanlar, yeni başlayan liderlər və rəqəmsallaşmada ötmə səviyyəsində olanlar kateqoriyasına aiddir.

**Dünyada enerji və nəqliyyat mərkəzi olaraq tanınan, Avropa İttifaqı və bir sıra dövlətlərin enerji təhlükəsizliyinə öz töhfəsini verən Azərbaycan da artıq "SƏNAYE 4.0"a qədəm qoyur.** Yeni dövr Azərbaycanın da qarşısında zamanın çağırışlarına cavab vermək, iqtisadi inkişafda yeni hədəflərə çatmaq kimi vəzifələr formalaşdırır. Sürətli inkişaf səviyyəsində olan dövlətlərdə olduğu kimi, ölkəmiz üçün də iqtisadiyyatın rəqəmsallaşdırılması, rəqəmsal iqtisadiyyatın qurulması, innovasiyaların tətbiqi prioritetlər sırasındadır. Hazırda Azərbaycan Respublikası iqtisadiyyatın rəqəmsallaşması, rəqəmsal iqtisadiyyatın qurulması və dayanıqlı inkişaf üçün bütün imkanlara sahibdir. Ölkəmizin yerləşdiyi unikal coğrafi mövqe, təbii resursları, həmçinin qiymətli insan resursları, eləcə də son illər ərzində cənab Prezident İlham Əliyev tərəfindən qəbul olunmuş dövlət proqramları, sərəncam və fərmanlar buna tam imkan verir.

Hazırda ölkəmiz İKT sahəsinin inkişafına görə dünya üzrə 65-ci yerdə qərarlaşıb və Cənubi Qafqaz ölkələri arasında liderdir. Beynəlxalq Telekommunikasiya İttifaqının (İTU) "State of Broadband Report 2018" sənədinə əsasən, Azərbaycan MDB məkanında internetin əhatə olunması, yayımına görə ilk yerdədir (79%). Dünya Bankının "Doing Business 2019" hesabatında isə Azərbaycan Avropa və Mərkəzi Asiyada ən çox islahat aparan 10 ölkə sırasındadır və dünya üzrə 190 ölkə arasında 25-ci yerdə qərarlaşıb. İqtisadi və sosial sahələrdə aparılan geniş islahatlar Azərbaycanın beynəlxalq reytinqlərdə öncül mövqeləri əldə etməsi ilə nəticələnir.

### Yeni iqtisadiyyat - Rəqəmsal iqtisadiyyat quruculuğu dayanıqlı infrastrukturla sıx bağlıdır

İqtisadiyyatın rəqəmsallaşması və rəqəmsal iqtisadiyyat quruculuğu dayanıqlı və təhlükəsiz infrastruktur quruculuğu ilə sıx bağlıdır. Çünki bir qayda olaraq dayanıqlı və təhlükəsiz infrastruktur olmadan həm iqtisadiyyatın rəqəmsallaşması, yeni iqtisadiyyatda, iqtisadi münasibətlərdə İKT-dən istifadə, həm də rəqəmsal iqtisadiyyata keçid və onun qurulması, yeni rəqəmsal texnologiyalar əsasında rəqəmsal məhsulların yaradılması - istehsalı mümkün ola bilməz. Məhz



müasir texnoloji infrastruktur rəqəmsallaşmanın və rəqəmsal iqtisadiyyatın əsas komponentini təşkil edir. Hazırda dünyada sürətlə inkişaf edən Əşyaların interneti (IoT), 5G, robotlaşma, kibertəhlükəsizlik, süni intellektin tətbiqi sahələri də müvafiq magistral infrastrukturun qurulmasını və yenilənməsini tələb edir. Dayanıqlı sabit infrastruktur olmadan həm ölkələrarası, həm də ölkədaxili bağlantı (connectivity) xidmətlərinin qabaqcıl standartlara uyğun təmin edilməsi mümkün deyil. Hazırda dünya üzrə bağlantı xidmətləri sürətlə inkişaf edir. Həm mobil, həm də genişzolaqlı internet istifadəçilərinin sayı artır. Operatorlar hər ötən il infrastruktura yeni sərmayə yatırımı ehtiyacı ilə qarşılaşırlar. Böyük Britaniyanın telekom, media və texnologiya üzrə ixtisaslaşmış konsaltinq şirkəti olan "Analysys Mason"un məlumatına əsasən, 2014-cü ildən bəri operatorlar internet infrastrukturuna 300 milyard ABŞ dollarından çox sərmayə yatırıblar.

Araşdırmalar internetə qoşulan cihazların da sayında artımın olacağını göstərir. Məsələn, Mobil Operatorların Assosiasiyası olan "GSMA" təşkilatının "The Mobile Economy 2019" hesabatına əsasən dünya üzrə 2018-2025-ci illər dövründə Əşyaların interneti (IoT) bağlantılarının səviyyəsi üç dəfə artaraq 25 milyarda çatacaq. Bu dövrdə Əşyaların internetindən əldə olunan gəlir isə 4 dəfə artaraq 1.1 trilyon ABŞ dolları həcmində olacaq. Rəqəmsallaşma və infrastrukturun inkişafı mobil internet istifadəçilərinin də sayında artımın baş verməsi ilə nəticələnəcək. Hesabata əsasən, mobil internet istifadəçilərinin sayı 2018-ci ildə olan 3.6 milyard nəfərdən 2025-ci ildə 5 milyarda çatacaq.

Qeyd edilməlidir ki, **rəqəmsallaşma və rəqəmsal iqtisadiyyat quruculuğu Azərbaycanda da İKT sahəsində dayanıqlı infrastruktur quruculuğu məsələlərini gündəmə gətirir.** Beynəlxalq bağlantı xidmətlərinin təkmilləşməsi, internet xidmətindən hər il daha çox sayda insanın istifadə etməsi üçün sabit texnoloji bazanın təkmilləşməsi və yeni texnoloji infrastruktur quruculuğu vacib əhəmiyyət kəsb edir. Hazırda reallaşmasına start verilmiş və Azərbaycanın Regional Rəqəmsal Mərkəzə çevrilməsi üzrə icra edilən "Azerbaijan Digital HUB" proqramının da əsasında bu ideya dayanır. **Azərbaycanın ilk mobil operatoru "Bakcell" şirkətinin törəmə müəssisəsi olan magistral internet provayderi "AzerTelecom" şirkəti tərəfindən icra olunan "Azerbaijan Digital HUB" proqramı çərçivəsində əsas istiqamətlərdən ən birincisi elə dayanıqlı infrastrukturun qurulmasıdır.** Bu istiqamətdə şirkətimiz tərəfindən həm ölkə daxilində, həm də ölkə xaricində texnoloji infrastrukturun qurulması üçün işlər aparılır. "Azərbaycan Dəmir Yolları" QSC ilə apardığımız layihə ölkə daxilində dəmir yollarının mühafizə zolağı boyunca magistral fiberoptik kabel xətlərinin çəkilməsini və beləliklə də şimal-cənub, şərq-qərb istiqamətlərdə qonşu dövlətlərin telekom operatorları ilə şəbəkə bağlantılarının qurulmasını təmin edəcəkdir. "Digital HUB" proqramı çərçivəsində Avropa ilə Asiya arasında tarixi İpək yolunun üzərində yeni rəqəmsal İpək yolunun qurulması və bunun üçün Xəzər dənizinin dibi ilə Azərbaycan və Orta Asiya ölkələri arasında "Transxəzər magistralı"nın çəkilməsi isə ölkə xaricində magistral infrastrukturun qurulması layihəsinin tərkib hissəsidir. Bütün qeyd olunanların reallaşması həm Azərbaycan daxilində müasir dövrün tələblərinə cavab verən sabit texnoloji bazanın formalaşmasını, həm də Azərbaycanın artıq internet və kontentin Asiya regionu ölkələrinə ötürülməsində tranzit, sonrakı mərhələdə (Bakının İnternet Mübadilə Mərkəzinə çevrilməsi və Azərbaycanda Regional Data Mərkəzin qurulması ilə) artıq mərkəzi ölkəyə çevrilməsini təmin edəcək.

### "Azerbaijan Digital HUB" proqramı rəqəmsal iqtisadiyyat üçün əlverişli platformadır

"Digital HUB" proqramı Azərbaycanın gələcək inkişafı üçün təkcə infrastruktur baxımından yeni imkanlar yaratmır. Xüsusi qeyd olunmalıdır ki, bu proqram son nəticədə rəqəmsal ekosistemin formalaşmasını nəzərdə tutur. Çünki proqramın əsasını təşkil edən komponentlər arasında dayanıqlı infrastrukturun quruculuğu, bağlantı xidmətlərinin təkmilləşməsi ilə yanaşı, həm də ölkəmizdə iri kontent operatorlarının (Facebook, Google, Netflix, Amazon, Alibaba, Tencent və s.) təmsil olunması, Regional Data Mərkəzin tikintisi, yeni iş yerlərinin açılması, kiçik və orta biznes subyektlərinin rəqəmsal biznes yönümündə inkişafı və gələcəkdə rəqəmsal xidmətlərin "Made in Azerbaijan" brendi altında ətraf regionlara ixracı da vardır. **Bütün bunlar isə Azərbaycanda rəqəmsal ekosistemin formalaşmasına, rəqəmsal iqtisadiyyatın inkişafına, ölkəmizin beynəlxalq reytinqlərdə daha öncül pillələrə qalxmasına, innovasiya reytinqində irəliləməsinə və müvafiq olaraq ümumi daxili məhsulun artımına da şərait yaradacaq.**

Araşdırmalar göstərir ki, rəqəmsal iqtisadiyyatın inkişafının ölkənin ÜDM-nin artımına mühüm təsiri vardır. Müxtəlif dövlətlərin iqtisadi inkişaf göstəricilərinə nəzər salsaq görərik ki, rəqəmsal sektorun Cənubi Koreya iqtisadiyyatında payı 12%, İsveçdə 8,6%, Finlandiyada 8,3%, ABŞ-da 7,4%, Böyük Britaniyada isə 7,1%-dir. Dünya İqtisadi Forumunun məlumatına əsasən, növbəti onillikdə iqtisadiyyatda yaranan yeni dəyərin 70%-i məhz rəqəmsal platformalara əsaslanacaq. "Google"un proqnozlarına əsasən, təkcə Cənub-Şərqi Asiyada rəqəmsal iqtisadiyyatın həcmi 2025-ci ilə qədər üçqat artacaq və 240 milyard ABŞ dolları təşkil edəcək.

Hazırda ABŞ, Böyük Britaniya, Fransa, Norveç, Qətər, Çin, Rusiya kimi dövlətlər rəqəmsal iqtisadiyyat quruculuğuna xüsusi diqqət yetirir və bu istiqamətdə hətta xüsusiləşmiş orqanlar yaradaraq, milli proqramlar qəbul edirlər. Bu da rəqəmsal transformasiya proseslərinin daha çevik formada aparılmasını təmin edir.

**Hazırda ölkəmizdə də aparılan islahatlar, dövlət və özəl sektor tərəfindən icra edilən mühüm proqramlar rəqəmsal iqtisadiyyat quruculuğu üçün mühüm baza formalaşdırır.** Regionun Enerji və Nəqliyyat Mərkəzi statuslarına sahib olan Azərbaycanın artıq yeni dövrdə mövcud resurslardan, qabaqcıl dünya təcrübəsindən istifadə etməklə qısa zamanda rəqəmsal iqtisadiyyat qurmaq və Regionun Rəqəmsal Mərkəzinə çevrilmək imkanı vardır.

***Fuad ALLAHVERDİYEV,***
***"AzerTelecom" MMC-nin***
***Baş icraçı direktoru,***
***"Azerbaijan Digital HUB"***
***proqramının rəhbəri***



Cənub bölgəsinin mərkəzi sayılan Lənkəranın özgə bir növrağı var. Ulu Tanrı bu qədim diyara hər şey - dağlar, meşələr, bulaqlar, çaylar, daha nələr, nələr bəxş etmişdir. Bol nemətli Lənkəran Xəzərin sahilini özünə əbədi məskən seçmişdir. Respublikamız öz tarixi müstəqilliyinə qovuşduqdan sonra isə bu gözəlliklərə yeni rənglər əlavə olunmuşdur. Ötən əsrin 90-cı illərinin hadisələri o vaxt Lənkərandan da yan keçməmişdir. Xaricdən idarə olunan milli satqınlar süni şəkildə etnik qarşıdurma yaratmağa səy göstərirdilər. Lakin lənkəranlılar qurtuluş yolunu bu cənub diyarına qayğı ilə yanaşan Heydər Əliyevin hakimiyyətə qayıdışında görürdülər. Bu, Tanrının xalqımıza, dövlətimizə ən böyük mükafatı oldu. Ulu Öndərin gərgin əməyi, uzaqgörən siyasəti nəticəsində separatçı qüvvələr yerlərində oturduldu, ölkədə sabitlik yarandı. Cəbhədə atəşkəs əldə edildi. Respublikamızın həyatında mühüm rol oynayan "Əsrin müqaviləsi" imzalandı, hər sahədə islahatlar həyata keçirildi. Bütün bunlar isə bu gün Cənubi Qafqazın ən qüdrətli ölkəsinə çevrilən Azərbaycan üçün möhkəm bünövrə, iqtisadi-siyasi təməl yaratdı.

# Lənkəranın sabahı daha nurlu olacaq






## Tənəzzüldən tərəqqiyə

2004-cü il fevralın 11-də Prezident İlham Əliyev tərəfindən imzalanan regionların sosial-iqtisadi inkişafına dair I Dövlət Proqramına əsasən Lənkəranda da yeni istehsal sahələri yaradıldı, tikinti-quruculuq, abadlıq işləri start götürdü. Yeni-yeni təhsil, səhiyyə, mədəniyyət ocaqları, yaşayış evləri, ictimai binalar inşa edildi, köhnələri əsaslı şəkildə yenidən quruldu, parklar, xiyabanlar, körpülər salındı. Bu işlər günün tələbləri baxımından II-III dövlət proqramları çərçivəsində də davam etdirildi. Əməkhaqlarının, təqaüdlərin, müavinətlərin artırılması əhalinin güzəranını yaxşılaşdırdı. Lənkəran şəhəri böyüdü, kəndləri ilə birlikdə daha da inkişaf etdi, abadlaşdı.

Yenilikləri, tərəqqini gördükdə yaxın keçmişimiz kino lenti kimi bir daha göz önündən gəlib keçir. Gün ərzində şəhərin özünə 6-7 saat elektrik enerjisi verilirdi. Təbii qaz, içməli su, nəqliyyat, ticarət və digər sahələr də ondan geri qalmırdı. İdarə və müəssisələrin çoxu fəaliyyətini dayandırmışdı. Həmin müəssisələrin qiymətli avadanlıqları tarmar edilmişdi. Çay plantasiyaları, tərəvəz sahələri, naringi, portağal, feyxoa bağları otlaq yerlərinə çevrilmişdi və s.

Belə bir deyim var: hər şeyin zamana ehtiyacı var. 2003-cü ildə Lənkəran Şəhər İcra Hakimiyyətinin başçısı təyin olunan Zeynal Nağdəliyevin işgüzarlığı, təşkilatçılıq bacarığı ilə tez bir zamanda rayonda canlanma yarandı. Süstlük və laqeydlik halları aradan qaldırıldı. Ağsaqqallarla, ziyalılarla keçirilən görüşlər problemlərin həllinə kömək göstərdi. Keçmiş SSRİ məkanında yaşayan və işləyən lənkəranlı biznesmenlərə öz doğma rayonlarının iqtisadiyyatına, abadlaşmasına kömək etmək üçün məktubla müraciətlər olundu. "Xəzər - Lənkəran" komandası yaradıldı. Bərbad hala düşmüş şəhər stadionu əsaslı şəkildə yenidən quruldu. Daxili imkanlar hesabına şəhərin Qala xiyabanında yerləşən N.Vəzirov adına Lənkəran Dövlət Dram Teatrı təmir olunaraq fəaliyyətə başladı. Ucqar dağ kəndlərinin bir neçəsinə yol çəkildi. Bunlar dirçəlişin ilk qaranquşları idi.

Rayon sürətli inkişafa, iqtisadi yüksəlişə 2004-cü ildən qədəm qoydu. Respublikamızın regionları üzrə ilk Müalicə Diaqnostika Mərkəzi, Olimpiya İdman Kompleksi burada tikilib istifadəyə verildi. Əsaslı şəkildə yenidən qurulan Lənkəran Beynəlxalq Hava Limanı Moskva, Sankt-Peterburq və digər yerlərə uçuşlar həyata keçirməyə başladı.

## Taleyüklü məsələlər öz həllini tapdı

Hər bir ölkənin bugünü və sabahı üçün öndə duran təhsildir. Ulu Öndərin təbirincə desək, təhsil millətin gələcəyidir. Buna görə də bu məsələ dövlətin, Prezidentin daim diqqət mərkəzindədir. Dövlət proqramları çərçivəsində 2004-cü ildən indiyədək rayonda dövlət vəsaiti hesabına 39, Heydər Əliyev Fondunun xətti ilə 9 yeni məktəb binası tikilmiş və ya əsaslı şəkildə təmir edilmiş, lazımi avadanlıqlarla təchiz olunmuşdur. Bütün bunlar təhsilin keyfiyyətinə öz müsbət təsirini göstərmişdir. Keçirilən fənn olimpiadalarında, müsabiqələrdə şagirdlərin qazandığı yüksək nəticələr bunu aydın şəkildə göstərir. Bu il rayon üzrə 628 nəfər ali məktəblərə daxil olmuşdur. Onların da 20 nəfəri 600, 87 nəfəri isə 500-dən çox bal toplamışdır. Məzunlardan 1 nəfəri qızıl, 1 nəfəri gümüş medala layiq görülmüş, 6 nəfəri respublika fənn olimpiadalarında I-III yerləri tutmuşlar. Yeni dərs ilində 4 modul tipli və 432 şagird yerlik Şıxakəran tam orta məktəbinin binası tikilib istifadəyə veriləcəkdir. Hazırda Haftoni qəsəbəsində 624, Viləvar kəndində 2 saylı məktəb üçün 360 şagird yerlik məktəb inşa olunur. Eyni zamanda inteqrasiya təlimli gimnaziya əsaslı təmir edilir.

Müalicə Diaqnostika Mərkəzinin açılışı ilə bərabər Uşaq Müalicə Mərkəzi də balacaların ixtiyarına verildi. Rayon mərkəzi xəstəxanası, habelə qəsəbə və kəndlərdəki səhiyyə ocaqları əsaslı şəkildə yenidən quruldu. Uzun illər istifadəsiz qaldığından bərbad hala düşən Lənkəran Şəhər Mədəniyyət Evi öz fəaliyyətini bərpa etdi, indi mədəniyyət mərkəzi statusunu daşıyır. Lənkəran şəhərinin mərkəzində inşa edilən üçmərtəbəli Gənclər Evi ali və orta ixtisas məktəblərində təhsil alan gənclərin sevimli məkanına çevrilib. Onlar vaxtaşırı olaraq bu ünvana toplaşır, ad günlərini qeyd edir, müxtəlif müzakirələr, disputlar, görüşlər təşkil edir, asudə vaxtlarını səmərəli və mənalı keçirirlər.

Həyata keçirilən tədbirlər nəticəsində əhalinin elektrik enerjisi ilə təminatı keyfiyyətli və davamlı şəkildə ödənilir. Bu gün qazlaşdırma rayon üzrə 96 faiz təşkil edir. Xanbulançay su dəryaçasından Lənkəran şəhərinə içməli su xətti çəkilmiş, kanalizasiya xətti yeniləşdirilmiş və bu istiqamətdə işlər davam etdirilir.

## İtirilmiş şöhrət geri qaytarılır

Prezident İlham Əliyev 2017-ci il sentyabr ayının 3-də Lənkərana səfəri zamanı çay, çəltik və sitrus meyvələri istehsalının inkişafı məsələlərinə dair respublika müşavirəsi keçirdi. Dövlət başçısı öz məruzəsində iqtisadi inkşafın yeni hədəflərini müəyyən etdi. Hazırda qarşıya qoyulan vəzifələr uğurla yerinə yetirilməkdədir. Lənkəranın keçmiş şöhrəti geri qaytarılır, bunu qazanılan uğurlar da təsdiqləyir.

Sovetlər dövründə, xüsusən 1970-1980-ci illərdə Lənkəran rayonu Moskva şəhərinin tərəvəz bazası hesab olunurdu. Xüsusi soyuducu vaqonlarla kələm, pomidor, xiyar, digər kənd təsərrüfatı məhsulları, habelə sitrus meyvələri Rusiyanın paytaxtına göndərilirdi.



Çay plantasiyalarında, limon, naringi, portağal, feyxoa yetişdirilməsi ilə məşğul olan təsərrüfatlarda, tərəvəz sahələrində minlərlə adam işləyir, halal zəhməti ilə dolanırdı. SSRİ süqut edəndən sonra iqtisadiyyatımız zəiflədi... Dağıdılmış, altı üstünə çevrilmiş iqtisadiyyatı dirçəltmək, yenidən qurmaq lazım idi. Ulu Öndərin hakimiyyətə qayıdışından sonra bu istiqamətdə ardıcıl, sistemli işlər görüldü, islahatlar aparıldı. Regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramları çərçivəsində ilkin olaraq torpaqların becərilməsi üçün mülkiyyətçilərə subsidiyalar, güzəştli mineral gübrələr verildi. Texniki təminat üçün yaradılan "Aqroservis"lər bir müddət fəaliyyət göstərib, "Aqrolizinq"ə çevrildi, yerlərdə onun filialları təşkil olundu. Müxtəlif adda kənd təsərrüfatı texnikaları güzəştli qaydada sahibkarlara satıldı. Bu günlərdə qəbul edilən qərar - ehtiyat hissələrinin daha sərfəli qiymətlərə satılması mülkiyyətçilərin ürəyincə oldu. Heyvandarlığın inkişafı üçün tədbirlər görüldü. Hər bir rayonda kənd təsərrüfatı idarələri yaradıldı və onlar indi aqrar inkişaf mərkəzləri kimi fəaliyyət göstərir. Bu sahədə Lənkəranda da misli görünməmiş tədbirlər həyata keçirildi, sahibkarlar üçün hər bir şərait yaradıldı.

Sovet dövründə respublikamızda 13,4 min hektar çay sahəsinin 7 mini Lənkəranın payına düşürdü və il ərzində həmin sahələrdən 34,4 min ton yaşıl çay yarpağı yığılırdı. Həmin məhsuldan 4,2 min ton quru çay istehsal olunurdu. Bununla respublika əhalisinin quru çaya olan tələbatının 50 faizini Lənkəran ödəyirdi. İndi Lənkəran çayının əvvəlki şöhrətini qaytarmağın zamanı gəlmişdi. Respublikamızdan kənarda yaşayan lənkəranlı iş adamları rayon iqtisadiyyatının inkişaf etdirilməsi üçün sərmayə qoydular. Onlardan biri də çayçılığı inkişaf etdirməyi qarşısına məqsəd qoymuş Araz Yaqubovdur. O deyir ki, Rusiya Federasiyasının Yekaterinburq şəhərində yaşayırdım. Lənkəranda gedən geniş quruculuq işləri haqda eşidib vətənə qayıtmağı qərara aldım. Pay torpaqlarını satan adamlardan sahələr alaraq 2006-cı ildə "Yaşıl cay" adlı təsərrüfat yaratdım. 60 hektarda plantasiyalar salmağa başladım. İstəyim bu idi ki, təsərrüfat daha geniş olsun, daha çox adam işləyib ailəsini dolandırsın. Sonralar rayon icra hakimiyyətinin başçısı Taleh Qaraşov bu sahədə mənə böyük kömək etdi.

Hazırda "Yaşıl çay" MMC-nin 150 hektar torpaq sahəsi var. Bundan 70 hektarı çay, 6 hektarı sitrus meyvələri və 2 hektarı tut bağlarıdır. Qalan torpaqlarda isə saxladıqları 300 baş holland cinsli inəklər üçün yem bitkiləri əkilir.

Çay plantasiyaları adətən 7 ilə bara düşür. Lakin burada çalışan mütəxəssis və fəhlələr sahələrə nümunəvi qulluq etdiklərinə görə 4-cü il məhsul əldə etmişlər. Sahibkar Araz Yaqubov çayın becərilməsi üçün xeyli sayda texnikalar almış, kiçik həcmdə çay fabriki yaratmışdır. Keçən il "Yaşıl çay" MMC üzrə 96 ton yaşıl çay yarpağı yığılmış və həmin məhsuldan 19 ton keyfiyyətli quru çay emal olunmuşdur. Xüsusi qutulara qablaşdırılan "Buket çayı", "Gül çayı", "Premium", "Feyxoa çayı", "Narın çay", "Pürrəngi çay", "Qara məxməri çay", "Ekstra", "Zəncəfil çayı", "Xan çayı", "Tibet çayı" kimi məhsullar alıcılar tərəfindən rəğbətlə qarşılanır. Bu çaylar Rusiya Federasiyasına, Türkiyə, Gürcüstan və digər ölkələrə də göndərilir.

Araz Yaqubov dövlət başçısının baramaçılığın inkişafı ilə bağlı qarşıya qoyduğu məsələlərin yerinə yetirilməsi üçün də təşəbbüs göstərir. Bu məqsədlə 2 hektar tut bağı salınmışdır. Yaratdığı yem bazası bu il 800 kiloqramdan çox barama yetişdirməyə imkan vermişdir. 2016-cı ildən Lənkəranda baramaçılığın inkişafına başlanılıb. Mükəmməl qidalanma bazası yaratmaq məqsədilə 139,7 min tut ağacı tingi əkilmişdir ki, bunun da 89 mini Çin Xalq Respublikasından gətirilmişdir. Bu il rayonda 8,8 ton yüksəkkeyfiyyətli barama istehsal edilmişdir.

Lənkəranda çayçılığın inkişaf etdirilməsinə çalışan digər sahibkarlar da var. Fərman Quliyev, İltifat Kərimov, Mühəndis Cahangirov, Firqasim Məmmədov və digərləri bu sahədə yorulmadan çalışırlar. Hazırda rayonda 628,5 hektar çay plantasiyası mövcuddur və bunun da 483 hektarı yeni salınmışdır. Plantasiyalarda məhsul yığımı davam edir.

Qədim əkinçilik mədəniyyətinə malik olan Lənkəranda keçən əsrin 65-66-cı illərindən çəltik əkini dayandırılmışdı. Mövcud şərait, habelə çoxillik təcrübə son illər çəltikçiliyin inkişafını yenidən gündəmə gətirmişdir. Artan marağı nəzərə alaraq "Green East" MMC, "Cənub Aqro" MMC, "Muğan düyü" MMC çəltik əkini sahələrini ildən-ilə genişləndirir. Əgər 2015-ci ildə Lənkəranda 108 hektar çəltik sahəsi var idisə, 2019-cu ildə bu rəqəm 852 hektara çatdırılmışdır. Cari ildə sahələrdən 40 min tona qədər məhsul əldə edilməsi gözlənilir. Təsərrüfatlarda, əsasən, yerli "Həsənli", "Ənbərbu", "Qırmızı ənbərbu", "Çampo", "Sədri", "Yetimi", "Apollo" və digər sortlar əkilir. Rayonda 3 çəltik emalı zavodu fəaliyyət göstərir. Hazırda sahələrdə çəltik məhsulu yığılır.

Çəltiklə yanaşı, sitrus meyvələri: limon, naringi, portağal, feyxoa, kivi bu torpağın başlıca nemətləridir. Sadaladığımız meyvələr subtropik iqlim şəraitində yetişir. Belə bir iqlim isə Lənkəran, Astara və qismən də Masallı rayonlarındadır. Son illər rayonda sitrus meyvə bağları genişləndirilir və yeni məhsuldar sortlar əkilir. "Gilan Aqro" MMC tərəfindən 2016-cı ildən başlayaraq 100 hektar sahədə Cənubi Koreyadan gətirilmiş hollabong sitrus meyvələri əkilmişdir. Onlar yerli sitrus bağlarından 2 dəfə çox məhsuldardır. Keçən il isə rayonun Tükəvilə kəndinin 150 hektar torpaq sahəsində Türkiyədən gətirilmiş 100 min ədəddən çox yeni məhsuldar sitrus meyvəsi tingləri əkilmişdir. Həmin ağacları suvarmaq üçün müasir suvarma sistemi, habelə qış aylarında yarana biləcək şaxtanın təsirini sıfra endirə bilən "Donqoruyucu Pərvanə" qurğusu quraşdırılmışdır. Keçən il rayonda 1382 hektar sahədən 15 min ton sitrus meyvələri yığılmışdır. Mütəxəssislər bu il daha çox məhsul gözləyirlər. Rayonda meyvə-tərəvəz məhsullarının istehsalı və emalı ilə məşğul olan "Azərsun Holdinq"in "Lənkəran Konserv" ASC, habelə "Gilan Lənkəran Konserv Zavodu" fəaliyyət göstərir.

Qazanılan nailiyyətlərin nəticəsidir ki, 2017-ci ildən etibarən dekabr ayında Lənkəranda "Çay, çəltik, sitrus" festivalı keçirilir. Zəhmətin təntənəsi olan nemət dolu bu tədbir əsl el bayramına, el şənliyinə çevrilir.

## Turizm potensialı genişlənir

Lənkəranda gedən sürətli inkişaf turizm sahəsində də özünü göstərməkdədir. Lənkəran Turizm İnformasiya Mərkəzi tərəfindən Azərbaycan, rus və ingilis dillərində rayonun turizm potensialını əks etdirən bukletlər, flayerlər, təqvimlər müxtəlif sərgilərdə nümayiş etdirilir, turistlərə verilir. Yerli sənətkarların hazırladıqları suvenirlər də turistlər tərəfindən maraqla qarşılanır.

Rayon ərazisindəki Hirkan Milli Parkı ekoloji turizmin inkişafına şərait yaratmışdır. Lənkəranın aqrar rayon olması nəzərə alınaraq bu sahədə də turizmin inkişafı üçün kompleks tədbirlər görülür. Belə ki, çay plantasiyalarına, çay emalı fabriklərinə turlar təşkil edilir.

Lənkəran müalicəvi termal suları ilə də məşhurdur. Burada müasir tələblərə cavab verən ən böyük müalicə-istirahət kompleksi inşa olunmuşdur.

## Həmişə qonaq-qaralıdır

Lənkəran bütün dövrlərdə qonaq-qaralı olub. Rayon tarix diyarşünaslıq muzeyinin "Xatirə kitabı"nı vərəqlərkən bunun bir daha şahidi oluruq. Sovet dövründə - 1970-ci illərdə respublikamıza təşrif buyuran ən hörmətli, nüfuzlu qonaqlar Bakıdan sonra Lənkərana gələr, buranın əsrarəngiz təbiəti, tarixi abidələri ilə tanış olar, insanları ilə görüşüb söhbətləşərdilər. Təəssüratlarını "Xatirə kitabı"na qeyd edərdilər. Rusiyanın böyük şairi N.Tixonov Lənkəranı "Cənub mirvarisi" adlandırmışdı. Bu söz sonralar dillər əzbəri olmuşdur.

Lənkəran ABŞ-ın Kaliforniya ştatının Monterey şəhəri ilə qardaşlaşmışdır. 2010-cu ildən başlayaraq Montereyin nümayəndələri Lənkərana, cənub şəhərinin nümayəndələri isə oraya gedib-gəlirlər. Bu il may ayının 28-də Azərbaycan Respublikası Günü ilə əlaqədar Lənkəranın nümayəndə heyəti Monterey şəhərinə dəvət olunmuşdular. Tədbir iştirakçıları müstəqil Azərbaycanın tarixi, bugünü, Qarabağ həqiqətləri, Xocalı faciəsi, ermənilərin xalqımızın başına gətirdiyi faciələr haqqında danışaraq amerikalıları məlumatlandırmışlar. Monterey şəhərinin rəhbərliyi Respublika Günü münasibətilə ziyafət vermişdir. Hər iki şəhər arasında təhsil, səhiyyə, mədəniyyət və sosial məsələlərlə əlaqədar təcrübə mübadiləsi uğurla davam etdirilir.

## Ağsaqqal sözü

Lənkəranda yaşlı nəslin nümayəndələri təqaüdə çıxsalar da, rayonun ictimai-siyasi həyatında yaxından iştirak edirlər. Onlardan biri də Sərhad Məmmədovdur. Keçən əsrin 70-80-ci illərində Lənkəran Rayon Xalq Deputatları Soveti İcraiyyə Komitəsinin sədri, Yardımlı Rayon Partiya Komitəsinin birinci katibi vəzifələrində çalışıb. Təqaüddə olmasına baxmayaraq, fəal həyat mövqeyini davam etdirir. Rayon Ağsaqqallar Şurası sədrinin müavini kimi ictimai-siyasi işlərdə, xüsusilə gənclərin vətənpərvərlik ruhunda tərbiyə edilməsində bilik və təcrübəsini əsirgəmir. S.Məmmədov söhbət zamanı dedi: "İndiki gənclərimiz gözəl zəmanədə yaşayırlar. Bütün qapılar onların üzünə açıqdır. İstədikləri arzularına çatmaq üçün onlara hər cür şərait yaradılıb. Bunların əsasını Ümummilli Lider Heydər Əliyev qoyub. Ulu Öndər müstəqilliyimizin möhkəmlənməsi üçün düşünülmüş siyasət yürütdü. Prezident İlham Əliyev, respublikanın birinci xanımı Mehriban Əliyeva bu siyasəti uğurla davam etdirirlər. Azərbaycan dünyanın sürətlə inkişaf edən ölkələri sırasındadır. Əhalinin sosial vəziyyətinin yaxşılaşdırılması ilə əlaqədar tədbirlər davam etdirilir. Sentyabrın 1-dən əməkhaqları, təqaüdlər, müavinətlər 20-40 faiz arasında artmış, minimum əməkhaqqı 250 manata çatdırılmışdır. İndi ölkəmiz tərəqqi edir. Bunu bizim Lənkəranda daha aydın görmək olar. Prezidentin qarşıya qoyduğu məsələlərin icrası üçün rayon icra hakimiyyətinin başçısı Taleh Qaraşov bacarıqlı təşkilatçı, təcrübəli işçi kimi məqsədyönlü iş aparır. Tikinti-quruculuq, abadlıq, habelə aqrar sahədə məsələlər rayonda ardıcıllıqla öz həllini tapır".

**P.S.** *Lənkəran aydan-aya, ildən-ilə inkişaf edir, daha abad və gözəl olur. Bunlar bu torpağın hər bir övladını, oğlunu, qızını, qocasını, cavanını sevindirir, doğma yurda bağlılığını, sevgi və məhəbbətini artırır. Onların hər biri bu cənub şəhərinin sakini olması, burada yaşaması, çalışması ilə fəxr edir, qürur hissi keçirir, Lənkəranın şan-şöhrətini qorumağa, daha yüksəklərə qaldırmağa səy göstərir. Bu isə deməyə əsas verir ki, cənub şəhərinin sabahı daha nurlu və firavan olacaq.*

***Seyran CAVADOV, "Azərbaycan"***












# DÜNYA



BEYNƏLXALQ SİYASƏT

## Böyük Britaniya sərt Brexitə doğru gedir

### Birləşmiş Krallıq xaos yaşaya bilər

Böyük Britaniyanın Avropa İttifaqından (Aİ) çıxması (Brexit) prosesi iki il beş aydan çoxdur ki, uzanır. Birləşmiş Krallıq bu il martın 29-da - yazılı xəbərdarlıq məktubu verdikdən iki il sonra Aİ-ni tərk etməli idi.

Lakin Britaniya parlamentinin aşağı palatasının - İcmalar Palatasının deputatları Brüsselə Baş Nazir Tereza Mey hökuməti arasında əldə olunmuş Brexit sazişinin layihəsini üç dəfə rədd etdilər. Nəticədə Aİ Brexiti əvvəlcə aprel, yaxud may ayına, sonra isə oktyabrın 31-nə keçirməyə razılıq verdi. Mey vəziyyəti dalandan çıxara bilmədiyinə görə istefa vermək məcburiyyətində qaldı.

Bundan sonra Baş Nazir seçilmiş Boris Conson bəyan etdi ki, Birləşmiş Krallıq oktyabrın 31-də Aİ-ni tərk edəcək - ya sazişli, ya sazişsiz. Müxalifətçi partiyalar hakim Mühafizəkarlar Partiyasının bir sıra deputatlarının dəstəyi ilə hökumətdən Brexiti üç ay təxirə salmağı tələb edən və Aİ-dən sazişsiz çıxmağı qadağan edən qanun qəbul etdilər. Lakin bu qanuna baxmayaraq, Conson vəd verdi ki, ölkə oktyabrın 31-dək Aİ-dən çıxacaq və ona görə də Brexiti təxirə salmaq xahişi ilə Aİ-yə müraciət etməyəcək.

Belə olan təqdirdə Baş Nazir oktyabrın 15-də növbədənkənar parlament seçkiləri keçirmək təklifi irəli sürdü, lakin parlament bu təklifi rədd etdi. Bununla belə, Conson eyham vurmuşdu ki, təklifini yenidən parlamentə təqdim etmək niyyətindədir.

Eyni zamanda hökumətin başçısı ictimaiyyəti və siyasi elitanı inandırmağa çalışırdı ki, Aİ-nin gələn ayın 17-18-də keçiriləcək sammitində Brüssellə Brexitin şərtlərini



yaxşılaşdırmaq barədə razılığa gələ biləcək. Conson iddia edirdi ki, Aİ rəhbərliyi ilə danışıqlarda hansısa irəliləyiş nəzərə çarpır.

Lakin Brüssel bu iddianı təsdiqləmir. Aİ-nin aparıcı ölkələrinin liderləri birmənalı şəkildə bəyan edir ki, Brexitin yenidən təxirə salınmasından söhbət gedə bilməz. Onlar vurğulayırlar ki, hər üç aydan bir təkrar-təkrar bu məsələyə baxmaq fikrində deyillər. Brüssel təklif edir ki, Londonun özü öz başına çarə qılsın. Fransanın Xarici İşlər naziri Jan-İv Le Drian ölkəsinin mövqeyini qəti şəkildə ifadə etmişdir: "Britaniyalılar deyirlər ki, Aİ-dən çıxmaq üçün başqa qərarlar, alternativ tədbirlər təklif etmək istəyirlər. Amma biz təklifi heç görməmişik və ona görə də bizim cavabımız "yox"dur". Başqa sözlə, Birləşmiş Krallıq Aİ-ni sazişsiz tərk etmək, yəni sərt Brexiti tətbiq etmək məcburiyyətində qalacaq.

Bəs Londonun Aİ ilə saziş bağlamadan Birlikdən çıxması hansı fəsadlar doğura bilər? Conson hökuməti hakimiyyətə gələndən bəri elə bu barədə düşünürdü. Nəhayət, hökumət İcmalar Palatası deputatlarının tələbi ilə əvvəllər məxfiləşdirilmiş "Operation Yellowhammer" ("Yulaf əməliyyatı") kod adlı planın təfsilatını açıqlamalı oldu. Planda ölkənin oktyabrın 31-də Aİ-dən saziş bağlamadan çıxmasının doğuracağı fəsadlar təsvir olunmuşdur.

Sənədin məzmunundan aydın olur ki, Böyük Britaniya sərt Brexitlə üzləşsə, Birləşmiş Krallıq avtomatik olaraq "üçüncü ölkə" statusu alacaq, Brüssellə münasibətlər "qeyri-dost" xarakteri kəsb edəcək. Ölkəni ərzaq, dərman, yanacaq qıtlığı və kütləvi etiraz aksiyaları gözləyə bilər. Sənəddə qeyd olunur ki, bəzi təzə məhsul növlərinə əlçatarlıq azalacaq. Belə bir risk var ki, məhsulların təlaş içində kütləvi şəkildə alınması ərzaq təchizatında fasilələrə gətirib çıxarar. Dərman təchizatında vəziyyət xüsusilə mürəkkəb olacaq.

Eyni zamanda hökumət ehtiyat edir ki, sərt Brexit reallaşsa, yük maşınları La-Manş boğazını iki gün yarıma qədər ləngimə ilə keçəcək, nəqliyyat axınının intensivliyi gündə 40-60 faiz azalacaq, bu vəziyyət isə üç ayadək davam edə bilər. Bundan başqa, limanlar və aeroportlar vasitəsilə ölkəni tərk edəcək sərnişinlərdə çətinliklər yaranacaq, bəzi bölgələrdə yanacaq qıtlığı hiss olunacaq. Sənəddə mümkün iğtişaşlarla əlaqədar deyilir ki, etiraz aksiyaları və əks etiraz aksiyaları Böyük Britaniyanın bütün ərazisində müşahidə olunacaq və polisin xeyli ehtiyatlarını tükədəcək. Həmçinin cəmiyyətdə gərginliyin artacağı proqnozlaşdırılır. Təzə ərzaq məhsulları, eləcə də bəzi baytarlıq preparatları təchizatında fasilələr supermarketlərdə qiymətlərin artması və nəticə etibarilə əhali arasında təlaşın yaranmasına gətirib çıxaracaq.

Bundan başqa, ekspertlər Böyük Britaniyanın hüquq mühafizə orqanları arasında məlumat mübadiləsində problemlər yaranacağını proqnozlaşdırırlar. Sənəddə göstərilir ki, polis əməkdaşlarının xeyli hissəsi etiraz aksiyalarının və ictimai narazılığın yatırılması işinə cəlb olunacaq.

Hökumət Böyük Britaniyanın Şimali İrlandiya bölgəsi ilə İrlandiya Respublikası arasında sərhəddə "yeni yoxlamalara yox" siyasəti tətbiq etməyə cəhd göstərəcək, amma belə bir model uzaq perspektivdə özünü doğrultmayacaq. Özü də gözlənildiyinə görə, Şimali İrlandiyada elektrik enerjisinin qiyməti kəskin şəkildə artacaq.

Göründüyü kimi, sərt Brexit Birləşmiş Krallığı xaosa sürükləyə bilər. Vəziyyətdən çıxış yolu görünmür. Baş Nazir Boris Consonla parlament arasında münasibətlər ən gərgin həddə çatıb. Hökumətin başçısı sərt Brexitə hazırlaşır, parlament isə Brüssellə razılaşdırılmış sazişin şərtlərinə yenidən baxmağı və "boşanma"nı təxirə salmağı tələb edir. Aİ liderlərinin mövqeyi məlum olduğundan britaniyalı parlamentarların istəyinin reallaşacağına ümid yox dərəcəsindədir. Gələn ay keçiriləcək Aİ sammitindən hansısa möcüzə gözləməyə dəyməz. Başqa sözlə, sərt Brexit qaçılmazdır və Britaniya cəmiyyəti onun fəsadlarına qatlaşmalı olacaq.

***Allahverdi MEHDİYEV, "Azərbaycan"***

FACİƏ

## Mozambikdə Prezidentlə görüş faciə ilə bitdi



Mozambikdə stadionda ölkə Prezidenti ilə görüş zamanı yaranmış basabasda on nəfər həlak olmuşdur. Bu barədə "Assoşieyted Press" agentliyi xəbər verir.

Məlumata görə, dövlət başçısı Filipe Nyusenin kiçik stadionda tərəfdarları ilə görüşü zamanı bütün qapılar bağlanmışdı. Görüş başa çatdıqdan sonra seçicilər stadionu tələsik tərk edərkən basabas yaranmış, onlarla adam kütlənin ayaqları altında qalmışdır.

85 nəfərin xəsarət aldığı bildirilir. Onlar xəstəxanalara yerləşdirilmişlər.

KOSMOS

## Çin kosmosa üç süni peyk buraxdı



Çin fəzaya daha üç kosmik aparat, o cümlədən Arktika və Antarktikanı müşahidə etmək üçün BNU-1 kod adı olan ("Tszinşi-1") peyk göndərib. Bu barədə Çin Aerokosmik Elm və Texnika Agentliyi məlumat vermişdir.

Süni peyklər "Long March 4B" raketi vasitəsilə ölkənin şimalında yerləşən Şansi əyalətindəki Tayyuan kosmodromundan buraxılıb. BNU-1 peyki agentliyin, "Çançjen" İstehsalat Birliyinin və Pekin Pedaqoji Universitetinin birgə istehsalıdır. Ağırlığı cəmi 10 kiloqram olan bu aparat sayəsində Yer kürəsinin hər iki qütbünü müşahidə etmək mümkün olacaq. Yaxın gələcəkdə bu cür peyklərin sayını 24-ə çatdırmaq nəzərdə tutulur. Çin alimləri onların köməyi ilə Tibetin yüksək dağlıq ərazisini də tədqiq edəcəklər.

SEÇKİ

## Kanada parlamenti buraxıldı



Kanadanın Baş Naziri Castin Trüdo parlamentin buraxıldığını elan etmişdir. Bu barədə TASS agentliyi xəbər verir.

Hökumətin başçısı həmçinin ölkədə 40 günlük seçkiqabağı kampaniyanın başladığını bəyan etmişdir. Trüdo bununla bağlı bildirmişdir: "Bu payızda kanadalılar yenidən nə cür görmək istədikləri Kanadanın gələcəyinə səs verəcəklər". Seçkilər oktyabrın 21-də keçiriləcək.

QƏTL

## Ermənistanda rusiyalı hərbçi öldürüldü

Ermənistanın Gümrü şəhərində 23 yaşlı rusiyalı hərbi qulluqçunun cəsədi aşkar edilmişdir. Onun öldürüldüyü bildirilir. Ermənistan İstintaq Komitəsinin mətbuat xidmətindən verilən məlumata görə, hərbçinin bədənində zorakılıq əlamətləri aşkar olunmuşdur. Bu barədə "İnterfaks" agentliyi xəbər verir. Faktla bağlı cinayət işi qaldırılmışdır, istintaq aparılır.

RBK agentliyinin xəbərinə görə, vəhşicəsinə qətlə yetirilmiş çavuş Aleksandr Babuşkin Gümrü şəhərində yerləşən Rusiyanın 102-ci hərbi bazasında xidmət edirmiş.

İSTİNTAQ

## Fransa Milli Assambleyasının spikeri qanunsuz varlanmada ittiham olunur

### Ferran 14 saat ifadə verib

Lill şəhərinin istintaq orqanları Fransa Milli Assambleyasının (parlamentin aşağı palatası) sədri Rişar Ferrana qarşı qanunsuz varlanma ittihamı irəli sürmüşdür. Bu barədə "France Info" radiostansiyası xəbər verərək qeyd etmişdir ki, ölkə konstitusiyasına görə, Ferran Fransanın siyasi iyerarxiyasında dördüncü yeri tutur.



Srağagün Ferran təxminən 14 saat ifadə vermişdir. Parlament immuniteti bu cür prosedurun keçirilməsinə imkan verir.

Bu, Ferrana qarşı qanunsuz varlanma şübhəsi ilə bağlı artıq ikinci təhqiqatdır.

2017-ci ildə "Le Canard enchaine" həftəliyi və "Mediapart" internet portalı xəbər vermişdi ki, 2011-ci ildə Bretan regional şurasının müşaviri vəzifəsini tutan və "Mütüel de Bretan" birgə sığorta cəmiyyətinin yerli filialına başçılıq edən Ferran cəmiyyətin fəaliyyəti üçün keçmiş həyat yoldaşı Fransuaza Kustala məxsus obyekti iri məbləğə kirayələmişdir. Həmçinin bu obyektin təmiri üçün ictimai vəsaitdən 1,66 milyon avro ayrılmışdır.

Əslində belə hərəkətlər Fransa qanunlarını pozmasa da, KİV və ölkə ictimaiyyətinin bir hissəsi hesab edirdi ki, Ferran siyasi etika normalarına riayət etməmiş, həmin sövdələşmədən şəxsi mənfəət əldə etmişdir.

Bunun ardınca "Le Figaro" qəzeti xəbər vermişdi ki, 2014-cü il yanvarın 13-dən mayın 14-dək Ferranın oğlu parlamentdə onun köməkçisi vəzifəsində işləmiş və həmin müddətdə 6,8 min avro almışdır. Ferran bu faktı etiraf etmişdir.

Baş qaldıran qalmaqala baxmayaraq, 2017-ci il mayın 26-da Brest şəhər prokuroru bildirmişdi ki, məsələ öyrənildikdən sonra mətbuat materialları əsasında ilkin istintaqa başlamamaq barədə qərar qəbul olunmuşdur. Bununla belə, Ferran iyunun 19-da ərazi bütövlüyü naziri vəzifəsini tərk etmək məcburiyyətində qalmışdı. Ancaq o, böyük siyasətdən getməmiş və əvvəlcə Milli Assambleyadakı "Respublika, irəli!" fraksiyasının başçısı, sonradan isə aşağı palatanın spikeri təyin edilmişdir.

Rişar Ferran Emmanuel Makronun yaxın ətrafındakı fiqurların biridir. O, prezident kampaniyasının əsas təşkilatçılarından biri olmuşdur.

Ferrana qarşı yeni təhqiqat ötən ilin payızında Fransanın "Anticor" korrupsiya ilə mübarizə üzrə ictimai assosiasiyasının şikayəti əsasında Lill şəhərində açılmışdır. Həmin təşkilat 2017-ci ildə də spikerdən şikayət vermişdi.

Ferran ittiham irəli sürüldükdən sonra yaydığı bəyanatda Fransa Milli Assambleyasının sədri vəzifəsində qalmaq niyyətində olduğunu bildirmiş, tərəfdaşlarının və seçicilərinin tapşırdığı missiyanı davam etdirmək əzmində olduğunu vurğulamışdır. Ferran əlavə etmişdir ki, ittihamın prosedur tədbiri kimi irəli sürülməsi ona bu iş üzrə müdafiəni lazımi səviyyədə təşkil etməyə imkan verəcək.

Eyni zamanda Ferran qeyd etmişdir ki, analoji şikayətlə bağlı birinci işə cinayət tərkibi olmadığı üçün xitam verildiyini nəzərə alaraq baş verənlərə sakit yanaşır: "Həmin dosyedə heç bir yeni fakt peyda olmamışdır".

MİQRASİYA

## ABŞ Ali Məhkəməsi Trampı sevindirdi



ABŞ Ali Məhkəməsi Prezident Donald Tramp administrasiyasının miqrantlara sığınacaq verilməsini məhdudlaşdırmaq hüququnu təsdiqləyən qərar qəbul etmişdir. Bu barədə yerli KİV xəbər verir.

Prezident administrasiyasının fərmanı Meksika ilə sərhəddə sığınacaq istəyən və bundan əvvəl başqa dövlətin ərazisindən keçmiş şəxslərin qaçqın statusu almaq xahişini rədd etmək imkanı verirdi. Kaliforniya məhkəməsi bu qanun layihəsini bloklamış, lakin Ali Məhkəmə bloklamanı aradan götürmüşdür.

Ali Məhkəmənin qərarını yeddi hakim dəstəkləmiş, ikisi əleyhinə səs vermişdir. Ağ evin başçısı bu qərarı "böyük qələbə" kimi qiymətləndirmişdir.

TƏBİİ FƏLAKƏT

## Baham adalarında 2500 nəfər itkin düşüb



Dağıdıcı "Dorian" qasırğasından sonra 2500 nəfər itkin düşmüş hesab olunur. Bu barədə Baham adalarının Fövqəladə Hallar üzrə Milli Agentliyi məlumat vermişdir.

Sözügedən adamlar məlumat bazası yoxlananadək itkin düşmüş hesab ediləcəklər. Hazırda təxliyyə olunanların və müvəqqəti yerləşmə mərkəzlərinə gətirilənlərin siyahıları hazırlanır.

Qeyd olunur ki, müvəqqəti yerləşdirmə mərkəzlərində qasırğadan zərər çəkmiş minlərlə adam sığınacaq tapmışdır. Sentyabrın 10-na olan məlumata görə, 50 cəsəd evlərin və tikililərin dağıntıları altından çıxarılmışdır.

Xatırladaq ki, qasırğa Baham adalarını sentyabrın 1-də vurmuşdur. Bəzi yerlərdə küləyin sürəti saatda 300 kilometrə çatmışdır. Bahamda 13 min ev dağılmış, yaxud zərər çəkmiş, 70 min nəfərdən çox adam ev-eşiksiz qalmışdır.

Qasırğanın fəsadları üzündən arxipelaqın bir çox adaları praktiki olaraq yaşayış üçün yararsız vəziyyətə düşmüşdür.

TERROR

## Kabildə partlayış: 4 əsgər həlak oldu

Əfqanıstanın paytaxtı Kabildə Xüsusi Təyinatlı Qüvvələrin bazasının yaxınlığında içərisində bomba olan yük avtomobilinin partladılması nəticəsində 4 əsgər həlak olmuşdur. Bu barədə TOLO News agentliyi Müdafiə Nazirliyinə istinadən xəbər verir.

Partlayış nəticəsində üç əsgər ağır yaralanmışdır. Bu terror aktından əvvəl isə həmin ərazidə ordu qüvvələri ilə "Taliban" hərəkatının silahlıları arasında atışma baş vermişdir.

"Taliban" terror aktına görə məsuliyyəti üzərinə götürmüşdür.

NEFT

## ABŞ-ın gündəlik neft hasilatı 12,4 milyon bareldir

Birləşmiş Ştatların gündəlik xam neft istehsalı 12,4 milyon barel səviyyəsindədir. Bu barədə ABŞ Enerji İnformasiya Administrasiyası (EIA) məlumat vermişdir.

Məlumatda deyilir ki, ötən hesabat həftəsində ABŞ-ın neft istehsalı əvvəlki həftə ilə müqayisədə artaraq gündəlik 12,4 milyon barel olub. Bu göstərici ölkə tarixində neft istehsalının ən yüksək səviyyəsidir. Birləşmiş Ştatların neft hasilatı sonuncu dəfə 1970-ci ilin noyabrında maksimum - gündəlik orta hesabla 10,04 milyon barel təşkil edib.

ABŞ-ın gündəlik neft istehsalı yanvarda 11,9 milyon barel, fevralda 12 milyon barel, martda 12,2 milyon barel, apreldə 12,3 milyon barel, mayda 12,4 milyon barel, iyunda 12,2 milyon barel, iyulda 12 milyon barel, avqustda isə 12,3 milyon barel olub.

Keçən həftə ABŞ-ın neft idxalı əvvəlki həftə ilə müqayisədə 108 min barel azalaraq gündəlik 6,72 milyon barel təşkil edib. Ölkənin xam neft ixracı isə əvvəlki həftə ilə müqayisədə 234 min barel artaraq gündə 3,29 milyon barelə çatıb.

EIA-nın proqnozuna görə, ABŞ-ın neft hasilatı bu il gündə orta hesabla 12,32 milyon barel, gələn il isə 13,26 milyon barel təşkil edəcək.

# DSX-nin Çevik Hərəkət Qüvvələrinin hərbi hissəsində yeni idman kompleksi istifadəyə verilib





Azərbaycan Sərhəd Mühafizəsinin inkişafı və dövlət sərhədinin etibarlı mühafizəsi üçün sərhədçilərin peşəkarlıq səviyyəsinin və fiziki hazırlığının yüksəldilməsi mühüm əhəmiyyət kəsb edir.

Dövlət Sərhəd Xidmətinin (DSX) mətbuat mərkəzindən bildiriblər ki, 2012-ci ildə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin açılışını etdiyi DSX-nin Çevik Hərəkət Qüvvələrinin Yevlax şəhərindəki hərbi hissəsində yeni idman kompleksi istifadəyə verilib.



İdman kompleksinin açılış mərasimində iştirak edən DSX-nin Çevik Hərəkət Qüvvələrinin komandanı, general-leytenant Ehram Hacıyev Dövlət Sərhəd Xidmətinin rəisi, general-polkovnik Elçin Quliyevin təbrikini şəxsi heyətə çatdırıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Ali Baş Komandanlığı altında hərbi qulluqçular üçün zəruri xidməti və yaşayış səviyyəsinin təmin edilməsi, o cümlədən bədən tərbiyəsi və fiziki hazırlıqla məşğul olmaları üçün lazımi şəraitin yaradılması istiqamətində önəmli tədbirlərin görülməsi, bu sırada "Sərhədçi" idman olimpiya mərkəzinin, həmçinin bütün sərhəd dəstələrinin və digər hərbi hissələrin nəzdində yaradılmış idman komplekslərinin fəaliyyətinə böyük önəm verilməsi xüsusi qeyd olunub.

Yeni inşa edilmiş idman kompleksində çevikliyi və dözümlülüyü artırmaq üçün ən müasir avadanlıqla təchiz edilmiş trenajor zalı, stolüstü tennis və bilyard zalı, voleybol, basketbol və mini futbol oyunlarının keçirilməsi üçün nəzərdə tutulmuş böyük idman zalı mövcuddur. İdman kompleksində, həmçinin tamaşaçılar üçün tribuna, idmançılar üçün rahat geyinib-soyunma və yuyunma otaqları, kompleksin fəaliyyətini təmin etmək üçün zəruri avadanlıqla təchiz edilmiş xidməti otaqlar da istifadəyə verilib.

İdman kompleksinə baxış keçirildikdən sonra nümunəvi çıxışlar təqdim olunub.

*"Azərbaycan"*

## B İ L D İ R İ Ş

Azərbaycan Milli Elmlər Akademiyası Yusif Məmmədəliyev adına Neft-Kimya Prosesləri İnstitutu 2019-cu ildə institutun 90 illik yubileyinin keçirilməsi məqsədilə yubiley və konfrans tədbirlərinin keçirilməsi üçün

***təkliflər sorğusu elan edir***

**Təkliflər 19.09.2019-cu il saat 14:00-a qədər qəbul olunur.**
Əlaqələndirici şəxs: Mehriban İsmayıl qızı Paşayeva
Əlaqə nömrəsi: 012-490-13-29

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

"Bakı Metropoliteni" QSC tərəfindən müxtəlif növ kondisioner və məişət avadanlıqlarının satın alınmasına dair 11.09.2019-cu il tarixdə keçirilən açıq tenderdə göstərilən müddətdə ixtisas uyğunluğu üzrə tələblər pozulduğundan iddiaçıların sayı 3 (üç)-dən az olduğuna görə tender baş tutmamış hesab olunmuş və davamından imtina edilmişdir.

***Tender komissiyası***

## "Azərsu" ASC-nin daxili vəsaiti hesabına tabeliyində fəaliyyət göstərən laboratoriyalarında istifadə olunan cihazların əsaslı və cari təmir işlərinin satınalınması məqsədilə

## *açıq tender elan edir*

"Azərsu" tabeliyində fəaliyyət göstərən laboratoriyalarında istifadə olunan cihazların əsaslı və cari təmir işlərinin satınalınması.

Tender iştirakçıları **https://www.etender.gov.az** - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: *aşağı qiymət, yüksək keyfiyyət, təcrübə, maliyyə vəziyyəti.*

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə tender təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

İştirak haqqı 200 manatdır.

**Təşkilat: "Azərsu" ASC**
**VÖEN: 9900001751**
**Bank: "Kapital Bank"ASC-nin 1 saylı Nəsimi filialı**
**Kod: 200112**
**VÖEN: 9900003611**
**M/h: AZ37NABZ 01350100000000001944**
**S.W. İ. F. T. BIK: AİİBAZ2X**
**H/h: AZ65AİİB 33070019441100216111**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət (Tender komissiyasının adına);*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları;*
- *əsas şərtlər toplusunda nəzərdə tutulmuş digər sənədlər.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər.

Tender proseduru "Dövlət satınalmaları haqqında" Qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **4 oktyabr 2019-cu il saat 18.00-a** qədər, tender təklifi və bank təminatını isə **14 oktyabr 2019-cu il saat 18.00-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər.

İddiaçıların təklifləri **15 oktyabr 2019-cu il saat 11.00-da** açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

***QEYD:*** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.*

***Tender komissiyası***

*Təkrar*

## "Bakı Metropoliteni" QSC
## yeni tipli elektrik lövhələrinin və avadanlıqlarının satın alınması üzrə
## *açıq tender elan edir*

Tender 1 (bir) LOT üzrə keçirilir:

Tender iştirakçılarına təklif edilir ki, https://www.etender.gov.az/ - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar LOT üzrə müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

**LOT-1. "Bakı Metropoliteni" QSC üçün yeni tipli elektrik lövhələrinin və avadanlıqlarının satın alınması**
**İştirak haqqı - 200 manat**
**Hesabın adı: BAKI METROPOLITENI QSC**
**Hesab nömrəsi (IBAN): AZ98AZRT38050019440010268002 AZN**
**VÖEN: 1402871431**
**Bankın adı: AZƏR TÜRK BANK ASC (Mərkəz Filialı)**
**Kod: 501361**
**VÖEN: 9900006111**
**Müxbir hesabı: AZ02NABZ01350100000000022944**
**SWIFT BIK: AZRTAZ22**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər.

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **30 sentyabr 2019-cu il saat 17:00-a** qədər və tender təklifi ilə bank təminatı sənədlərini **08 oktyabr 2019-cu il saat 16:00-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər.

İddiaçıların təklifləri **09 oktyabr 2019-cu il saat 16:45-də** açılacaqdır.

İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**QEYD: Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.**

***Tender komissiyası***

# "Uşaq Qaynar Xətti" xidmətinə yay ayları ərzində 1547 müraciət daxil olub

Məqsədi uşaqlara ilkin psixoloji yardımın, emosional dəstəyin, müxtəlif problemlərin həllinə dair məsləhətlərin verilməsi, reabilitasiya mərkəzlərinə və digər xidmətlərə yönləndirmə və təxirəsalınmaz köməyin göstərilməsi olan, "Azercell Telekom" MMC-nin dəstəyi ilə fəaliyyət göstərən "Uşaq Qaynar Xətti" xidmətinə 2019-cu ilin iyun-avqust aylarında 1547 müraciət daxil olub. Zənglərin 89-u psixoloji, 194-ü hüquqi, 901-i təhsil, 80-i səhiyyə, 125-i sosial, 158-i isə digər məsələlərə aiddir.




Müraciətlərin 1440-ı 18 yaşdan yuxarı, 107-si isə 18 yaşdan aşağı şəxslər tərəfindən edilib. "Uşaq Qaynar Xətti" xidmətinə zənglər əsasən ailə üzvləri, müəllimləri və yaşıdları tərəfindən təzyiqə məruz qalan, boşanma nəticəsində valideynlərindən biri ilə ünsiyyətdən qismən məhrum olan uşaqlar tərəfindən daxil olur. Xatırladaq ki, öz Korporativ Sosial Məsuliyyət strategiyası çərçivəsində daim qayğıya ehtiyacı olan uşaqlar üçün layihələr ilə seçilən "Azercell" şirkəti 2018-ci il iyun ayının 13-dən etibarən "Uşaq Qaynar Xətti" xidmətinin Göygöl ofisini istifadəyə verib. Mərkəz Göygöl rayonunun sakinləri ilə yanaşı, ətraf rayonlarda (Goranboy, Gəncə, Şəmkir, Qazax, Ağstafa) yaşayan uşaqlara da xidmət göstərir.

"Azercell Telekom"un dəstəyi, "Ümidli Gələcək" İctimai Birliyinin təşkilatçılığı ilə 24/7 rejimdə fəaliyyət göstərən "Uşaq Qaynar Xətti" xidmətinə həm şəhərdaxili, həm də Azercell nömrələrindən edilən zənglər ödənişsizdir. (012) 480-22-80, (050) 680-22-80, (051) 880-11-80, (051) 880-22-80 və (051) 580-22-80 nömrələri ilə günün istənilən saatında qaynar xətt xidmətinə müraciət etmək imkanı yaradılıb. Həmçinin "Uşaq Qaynar Xətti"nin dünyanın istənilən nöqtəsində əlçatan olmasını təmin etmək üçün şirkətin təşəbbüsü və dəstəyi ilə 2017-ci ildə xidmətin IOS və Android əməliyyat sistemlərini dəstəkləyən mobil tətbiqi istifadəyə verilib.

*"Azərbaycan"*

## Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi inventarların kotirovkalar sorğusu üsulu ilə satın alınmasını həyata keçirir

Maraqlanan təşkilatlar (012) 596 44 09 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər. Kotirovka sorğusunda iştirak etmək üçün sənədlər 2019-cu il 17 sentyabr saat 15:00-dək qəbul olunur.

Ünvan: Bakı şəhəri, Salatın Əsgərova küçəsi, 85

***Tender komissiyası***

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

Qəzetin daim yenilənən rəsmi internet ünvanı:
www.azerbaijan-news.az

## ALLAH RƏHMƏT ELƏSİN!

Bəxtiyar Sadıqov, Bəxtiyar Əliyev, Elman Məmmədov və İmamverdi İsmayılov "Azərsu" Açıq Səhmdar Cəmiyyətinin sədri Qorxmaz Hüseynova qardaşı

**MƏHƏMMƏD HÜSEYNOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Milli Məclisin İşlər İdarəsinin kollektivi iş yoldaşları, Rabitə sisteminə xidmət sektorunun müdiri Elmir Həsənova qardaşı

**ETİBAR HƏSƏNOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Milli Məclisin Aqrar siyasət komitəsinin sədri Eldar İbrahimov və komitənin üzvləri: Eldar Quliyev, Tahir Süleymanov, Mahir Aslanov, Novruzəli Aslanov, İqbal Məmmədov, Elçin Quliyev, Eldəniz Səlimov, Hüseynbala Mirələmov, Cavanşir Paşazadə və Aydın Hüseynov "Azərsu" ASC-nin sədri Qorxmaz Hüseynova qardaşı

**MƏHƏMMƏD HÜSEYNOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev "Azərsu" Açıq Səhmdar Cəmiyyətinin sədri Qorxmaz Hüseynova qardaşı

**MƏHƏMMƏD HÜSEYNOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin yanında Antiinhisar Siyasəti və İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidmətinin rəhbərliyi və kollektivi Azad İstehlakçılar İctimai Birliyinin İdarə Heyətinin sədri Eyyub Hüseynova qızı

**XUMAR XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Milli Məclisinin deputatları Hadi Rəcəbli və Hüseynbala Mirələmov "Azərsu" ASC-nin sədri Qorxmaz Hüseynova qardaşı

**MƏHƏMMƏD HÜSEYNOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Milli Məclisin deputatı Ağalar Vəliyev "Azərsu" Açıq Səhmdar Cəmiyyətinin sədri Qorxmaz Hüseynova qardaşı

**MƏHƏMMƏD HÜSEYNOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının Rəyasət Heyəti və kollektivi Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynova qızı

**XUMAR XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin rəhbərliyi və kollektivi "Azərsu" Açıq Səhmdar Cəmiyyətinin sədri Qorxmaz Hüseynova qardaşı

**MƏHƏMMƏD HÜSEYNOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin rəhbərliyi "Azərsu" ASC-nin sədri Qorxmaz Hüseynova qardaşı

**MƏHƏMMƏD HÜSEYNOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Aydın Əliyev "Azərsu" Açıq Səhmdar Cəmiyyətinin sədri Qorxmaz Hüseynova qardaşı

**MƏHƏMMƏD HÜSEYNOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru, professor Ədalət Muradov və universitetin kollektivi "Azərsu" Açıq Səhmdar Cəmiyyətinin sədri Qorxmaz Hüseynova qardaşı

**MƏHƏMMƏD HÜSEYNOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Göyçaydan Mehdi Səlimzadə "Azərsu" Açıq Səhmdar Cəmiyyətinin sədri Qorxmaz Hüseynova qardaşı

**MƏHƏMMƏD HÜSEYNOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Cəlilabaddan Namiq Zeynalov "Azərsu" Açıq Səhmdar Cəmiyyətinin sədri Qorxmaz Hüseynova qardaşı

**MƏHƏMMƏD HÜSEYNOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Ərazilərinin Bərpası və Yenidən Qurulması üzrə Agentliyin rəhbərliyi və kollektivi "Azərsu" ASC-nin sədri Qorxmaz Hüseynova qardaşı

**MƏHƏMMƏD HÜSEYNOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Samur-Abşeron Kanalının İstismar İdarəsinin rəisi Zakir Rüstəmov "Azərsu" Açıq Səhmdar Cəmiyyətinin sədri Qorxmaz Hüseynova qardaşı

**MƏHƏMMƏD HÜSEYNOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan
AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az



Telefonlar
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1
"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet
Tiraj 9033
Sifariş 3008
Qiyməti 40 qəpik